alman
əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by:
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
PEŞƏ TƏHSİLİ ÜZRƏ
DÖVLƏT AGENTLİYİ




# LOGİSTİKA

"Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi" ixtisası üçün peşə hazırlığı modulu

Naşir
Deutsche Gesellschaft für
Internationale Zusammenarbeit (GIZ) GmbH
Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ)

Şirkətin oturum yeri
Bonn və Eşborn (Eschborn)
"Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə təhsili və Təlimi" Proqramı
Qış Parkı Plaza
Rəsul Rza küçəsi 75, 201-ci ofis
Tel. +994 (12) 599 91 20-25
Fax. +994 (12) 599 91 26
E-Mail. giz-aserbaidschan@giz.de
https://www.giz.de/en/worldwide/367.html

Müəlliflər
Yəhyayeva Elmira, Şixəliyeva Stella, Osmanova Günay

Çap edilib
2019

Məzmun
Quliyev Elmir

Hazırki dərgi "Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi" ixtisası üçün kurikulum və tədris vəsaitlərinin hazırlanması məqsədi ilə Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə təhsili və təlimi" Proqramı çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsil üzrə Dövlət Agentliyi ilə birgə hazırlanmışdır.
Qeyd 1: Bu kurikulumun hazırlanmasında müvafiq peşə standartından istifadə edilmişdir.
Qeyd 2: Dərgidə istifadə olunan şəkillər acıq mənbələrdən götürülüb.
Qeyd 3: Bu dərgidə yer alan təhlil, nəticə və tövsiyyələr müəlliflərin/müəllifin fikirlərini əks etdirir və GİZ-in mütləq mövqeyini təmsil etmir.

# MÜNDƏRİCAT

**Giriş**
**"Logistika" peşə hazırlığı modulunun spesifikasiyası**
**Təlim nəticəsi 1: Tədarük zəncirinin idarə edilməsi prosesini və logistikanın mahiyyətini izah edə bilir.**
1.1. Tədarük zəncirinin mahiyyətini və tədarük zəncirində logistikanın rolunu izah edir. 6
1.2. Logistik prosesi təsvir edir. 15
1.3. Logistik funksiyaları şərh edir. 18
1.4. Logistik strategiyaları qiymətləndirir. 22
1.5. Logistika təşkilatını və prosesinin təşkil edilməsini şərh edir. 24
1.6. Tələbələr üçün fəaliyyətlər 26
1.7. Qiymətləndirmə 28
**Təlim nəticəsi 2: Logistik prosesdə sığortanın rolunu bilr və sığorta qiymətinin son qiymətə təsirini dəyərləndirməyi bacarır.**
2.1. Sığortanın logistik əməliyyatlarda əhəmiyyəti vurğulayır. 30
2.2. Hər bir sığorta növünün əhatə dairəsini təsvir edir. 34
2.3. Daşınacaq yüklərin sığorta haqqını müəyyənləşdirir. 39
2.4. Məsuliyyətin sığortalanmasını vurğulayır. 41
2.5. Tələbələr üçün fəaliyyətlər 43
2.6. Qiymətləndirmə 43
**Təlim nəticəsi 3: Logistikada vergi proseslərini bilir və onları həyata keçirməyi bacarır.**
3.1. İstifadə olunacaq vergilərin məzmunu barədə məruzə edir. 43
3.2. Müxtəlif vergi növlərini sadalayır. 48
3.3. Məhsulun dəyərində vergilərin payını düzgün qiymətləndirir. 51
3.4. Tələbələr üçün fəaliyyətlər. 52
3.5. Qiymətləndirmə 52
**Təlim nəticəsi 4: Logistika informasiya sistemləri ilə işləməyi bacarır.**
4.1. Logistikada və tədarük zəncirinin idarə edilməsində informasiya axının əhəmiyyətini vurğulayır. 52
4.2. Logistik sistemlər ilə işləyir. 54
4.3. Anbarın idarə edilməsində Excel ofis proqramından istifadə edir. 57
4.4. Tələbələr üçün fəaliyyətlər. 60
4.5. Qiymətləndirmə 61
**Ədəbiyyat** 62

# GİRİŞ

Logistikanın müasir qloballaşmanın hökm sürdüyü dünyada artıq əhəmiyyətli rolu artmağa başlamışdır. Bir çox şirkətlər müştəri məmnuniyyətini artırmaq üçün logistikanın düzgün təşkil olunmasınn və logistik xərclərin, itkilərin azaldılması ilə bu uğura nail olmağın tərəfdarıdırlar. Bunun üçün logistikanın bir halqası olan anbarlama proseslərini məsuliyyətlə və ən düzgün formada həyata keçirə bilən mütəxəssislərə ehtiyac vardır. Logistika modulunu öyrənməklə bu prosesin mahiyyətini anlamaq üçün bilik və bu bilikləri tətbiq etmə bacarığı əldə olanacaqdır. Logistikanın tədarük zəncirində, anbarın logistik idarə edilmədə yeri haqqında aydın təsəvvür yaranacaqdır.

Birinci təlim nəticəsi logistikanın mahiyyəti, logistikanın əhəmiyyəti və onun tədarük zəncirində yerini əks etdirir. Bundan əlavə logistik strategiyalar, funksiyalar haqqında məlumat verilir. Logistik təşkilat və proseslərın təşkil edilməsi qaydaları haqqında danışılır.

İkinci təlim nəticəsi logistikada sığortanın əhəmiyyətini, sığortanın müxtəlif növləri haqqında məlumatları özündə əks etdirir. Daşınacaq yüklərin sığortalanması qaydası öyrədilir və məsuliyyətin sığortalanması vurğulanır.

Üçüncü təlim nəticəsində vergilərin logistikada rolu aşkar edilir. Vergi növləri haqqında məlumat verilir.

Dördüncü təlim nəticəsində logistik və tədarük zənciri idarə edilməsində informasiya axının əhəmiyyəti vurğulanır. Anbar idarə etmə sistemləri ilə anbar daxili proseslərin idarə edilməsi üsulları çatdırılır. Texnologiyanın inkişafına uyğun olaraq anbar daxili proseslərində dövrün axarı ilə uyğunlaşaraq sadələşmiş əməliyyatları göz önünə gətirilir. Excel-in anbarın idarə edilməsində yeri aydınlaşdırılır.

## “LOGİSTİKA” MODULUNUN SPESİFİKASİYASI

| |
|---|
| **Modulun adı: Logistika** |
| **Modulun kodu:** |
| **Modul üzrə saatlar: 220** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə logistika və tədarük zəncirinin mahiyyətini, logistik prosesdə sığortanın rolunu, izah edə, vergi proseslərini bilir və logistika informasiya sistemləri ilə işləməyi bacarır. |

| **Təlim nəticəsi 1: Tədarük zəncirinin idarə edilməsi prosesini və logistikanın mahiyyətini izah edə bilir.** |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədarük zəncirinin mahiyyətini və tədarük zəncirində logistikanın rolunu izah edir. |
| 2. Logistik prosesi təsvir edir. |
| 3. Logistik funksiyaları şərh edir. |
| 4. Logistik strategiyaları qiymətləndirir. |
| 5. Logistika təşkilatını və prosesin təşkil edilməsini şərh edir. |

| **Təlim nəticəsi 2: Logistik prosesdə sığortanın rolunu bilr və sığorta qiymətinin son qiymətə təsirini dəyərləndirməyi bacarır.** |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Sığortanın logistik əməliyyatlarda əhəmiyyəti vurğulayır. |
| 2. Hər bir sığorta növünün əhatə dairəsini təsvir edir. |
| 3. Daşınacaq yüklərin sığorta haqqını müəyyənləşdirir. |
| 4. Məsuliyyətin sığortalanmasını vurğulayır. |

| **Təlim nəticəsi 3: Logistikada vergi proseslərini bilir və onları həyata keçirməyi bacarır.** |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. İstifadə olunacaq vergilərin məzmunu barədə məruzə edir. |
| 2. Müxtəlif vergi növlərini sadalayır. |
| 3. Məhsulun dəyərində vergilərin payını düzgün qiymətləndirir. |

### 1.1. ƏDARÜK ZƏNCİRİNİN MAHİYYƏTİNİİ VƏ TƏDARÜK ZƏNCİRİNDƏ LOGİSTİKANIN ROLUNU İZAH EDİR

TƏDARÜK ZƏNCİRİ VƏ ONUN İDARƏ EDİLMƏSİ

**Tədarük zənciri (Supply Chain)** - hər hansı bir malı və ya xidməti tədarükçüdən istehlakçıya çatdırmaq üçün müxtəlif komponentlərdən təşkil olunmuş təşkilatlar, insanlar, texnologiya, müxtəlif fəaliyyətlər, informasiya və resurslar sistemidir. Tədarük zəncirinin idarə edilməsi prosesi daxilində təbii ehtiyatlar, xammal və s. istehlakçının tələbinə uyğun olan hazır məhsula çevrilir və istehlakçıya çatdırılır.

Tədarük zənciri bir çox funksiyanı özündə birləşdirən bir şəbəkədir. Bu şəbəkə daxilində ilk növbədə son məhsul və xidmətlərə çevrilmək üçün lazım olan ehtiyatlar əldə edilir. Bu ehtiyatlar əsasında hazır məhsul, xidmət təşkil edilir. Bundan sonra bu məhsul və xidmət logistika xidməti ilə istehlakçılara, yəni müştərilərə çatdırılır. Belə təsəvvür etdikdə tədarük zənciri çoxlu sayda işçini birləşdirən və bir çox müəssisəni əhatə edən bir zəncirdir. Tədarük zənciri tədarükün münasib şərtlərlə əldə edilməsi, onların istehsalat prosesində işlənilməsi, uyğun şəraitdə saxlanması, müştəri məmnuniyyətinin qorunması əsasında məhsul və xidmətin təşkili prosesidir. Bu zəncirin bütün halqalarında keyfiyyətin qorunmasına, maliyyə itkilərinin olmamasına, malların zədələnmədən son nöqtəyə çatdırılmasına diqqət etmək lazımdır.

Bir çox müəssisələrin tədarük zənciri ilə bütünləşməsinə səbəb texnologiyanın inkişafı ilə əlaqədar elektronik ticarətin inkişaf etməsi və malların daha effektiv şəkildə son nöqtələrə çatdırılmasıdır. Bir çox müəssisələr bu baxımdan tədarük zəncirinə yönəlmişdirlər. Belə müəssisələr mal, müddət, xidmət istiqamətli bir çox fürsətləri əldə edə bilirlər. Qloballaşan və rəqabətin artdığı iş dünyası daxilində var ola bilmək, tələbə uyğun məhsul təqdim edə bilmək, müştəri məmnuniyyətini təmin edə bilmək üçün müəssisələr tədarük zənciri yaratmaq məcburiyyətindədirlər. Bildiyimiz kimi hal-hazırda bazar şərtləri kəskinləşməkdədir. Bu şərtlər daxilində müəssisələr maliyyəyə qənaət edilməsi və maliyyə itkilərinin minimuma endirilməsi üçün səy göstərirlər. Bundan əlavə onlar texnologiya ilə ayaqlaşmalı və digər əməkdaşlarla birlikdə yaradılan tədarük zənciri vasitəsilə məhsul və xidmətlərin müştərilərə çatdırılmasını təmin etməlidirlər.

Tədarük zəncirinin idarə edilməsi (supply chain management) satınalma və tədarük, istehsal və logistika fəaliyyətlərinin planlaşdırılması və idarə olunmasını əhatə edir. Tədarük zəncirinin idarə edilməsi elə bir mexanizmdir ki, bir şirkət daxilində və şirkətlər arasında tələb və təklifin tənzimlənməsinə kömək edir. Qeyd edə bilərik ki, mikroiqtisadiyyat şirkətlərin, istehlakçıların və bazarların qərarlarına yönəlmişdir və şirkətlər tələb və təklifin, istehsal qərarlarının, qiymətin, işçi nisbətlərinin və gündəlik sövdələşmələrin analizini demək olar ki, hər gün həyata keçirir. Tədarük

zəncirinin idarə edilməsinə həmçinin tədarükçülər, potensial tərəfdaşlar, vasitəçilər, üçüncü-tərəf xidmət təminatçıları və müştərilərlə koordinasiya və tərəfdaşlıq əlaqələri daxildir. Göründüyü kimi bu mexanizm biznesin əsas proseslərini birləşdirir, onların bir-birilə əlaqəli və effektiv şəkildə fəaliyyətlərini təmin edir. Tədarük zəncirinin idarə edilməsi birbaşa olaraq istehsalat və logistika proseslərinə nəzarət edir. Həmçinin marketinq, satış, məhsul dizaynı, maliyyə və informasiya texnologiyaları proseslərinin fəaliyyətləri koordinasiya edilir.

Təchizat zəncirinin əsas məqsədi tələb və təklif arasında uyğunluq qurmaqdır. Belə olduqda iki problemli hal mümkündür. Birincisi tələbin təklifdən çox olduğu haldır. Nəticə olaraq inventar (mal və ya xidmət) istehlakçıların tələbini ödəmədən bitir. Müəssisə bazarın tələbini ödəyə bilmir və müştərilər narazı qalır. İkinci halda təklif tələbdən çoxdur. Belə olduqda inventar artıq qalır. Bu anbarda inventarın istifadəsiz qalması deməkdir. Bu halda inventar anbarda yatan nağd pul və maliyyə xərclərinin artması mənasına gəlir.

Tədarük zəncirinin optimallaşdırması üçün müxtəlik üsullardan istifadə olunur. Şirkətlərin böyüklüyündən, xammal və məhsulların növündən asılı olaraq fərqli yanaşmalar ola bilər. Hal-hazırda beynəlxalq praktikada ən çox işlənən üsullar bunlardır:

- Strateji satınalma - ucuz xammal və işçi qüvvəsi olan ölkələrdəki şirkətlərlə əməkdaşlıq. Məsələn: bütün dünya üzrə satılan kompüterlərin böyük əksəriyyəti Çində istehsal olunur.




- Yalnız zamanında - Yaponiyada inkişaf etdirilmiş bu üsul şirkətlərin inventarlarını azaltmaq üçün istifadə edilir. Əsas məqsəd istifadə olunacaq xammalın tam zamanında (istehsal olunan gündə) çatdırılmasıdır. Beləliklə, şirkət heç inventar saxlamamış olur. Məsələn, kompüter istehsalçısı Dell bu metoddan istifadə edərək bir çox müvəffəqiyyətlər qazanmışdır.

- Logistika optimallaşdırılması - çatdırılma yollarının analizi, konteyner tutumunun maximum istifadəsi və s. bu kimi üsulların tətbiqi üçün uyğun proqramlardan istifadə edərək.

Aşağıda müzakirə olunacaq səkkiz komponent (hissə) bir-birilə əlaqəlidir və tədarük zəncirinin idarə edilməsinin düzgün şəkildə işləməsini təmin edir. Bir biznesdə qüsursuz tədarük zənciri yaratmaq üçün bu səkkiz komponentə diqqət yetirilməlidir. Hansı ki güclü tədarük zəncirinin idarə edilməsi sistemi olan müəssisələrdə bu komponentlər əhəmiyyət kəsb edir. Həmçinin onlar tədarük zəncirinin idarə edilməsində komandalarını effektiv təşkil edir. Bu proses qurularkən boşluqların olmadığından əmin olmaq vacibdir. Hər hansı problem dərhal həll olunmalı və güclü əlaqələr yaradılmalıdır.

Tələb və təklif bu işin ən vacib aspektlərindən biridir. Hər hansı bir biznesin uğurla həyata keçirilməsi üçün tələb və təklif (bazarda nəyin tələb olunduğu və onu təmin etmək üçün malın və ya xidmətin kəmiyyət və keyfiyyət baxımından təminatı) baxımından düzgün bir plan diqqətlə tərtib olunmalıdır. Tədarük zəncirinin idarə edilməsi sistemi yalnız malların vaxtında istehsalı üçün deyil, həm də istehlakçıların tələblərinin səmərəli şəkildə qarşılanması üçün kompleks (mürəkkəb) bir sistemdir.

**Tədarük zəncirinin idarə edilməsinin 8 komponenti:**

**1. Planlaşdırma**

Planlaşdırma ən vacib mərhələlərdən biridir. Tədarük zəncirinin idarə edilməsinə başlanmazdan əvvəl strategiyaları yekunlaşdırmaq və onları yerinə yetirmək vacibdir. Məhsul və ya xidmətə olan tələbatın, mənfəətin, işçi qüvvəsinin və s. yoxlanılması həyati əhəmiyyət daşıyır. Plan və ya strategiya olmadan biznesin effektiv və uzunmüddətli faydalar əldə etməsi mümkün deyildir. Buna görə də bu mərhələyə kifayət qədər vaxt sərf olunmalıdır. Yalnız planlar yekunlaşdırıldıqdan, bütün üstünlük və mənfi cəhətlər nəzərə alındıqdan sonra proses davam etdirilə bilər. Hər bir işə başlamazdan əvvəl plan və ya strategiyalara əsaslanmaq lazımdır. Planlaşdırma bazarda tələb və tədarük meyllərini müəyyənləşdirməyə kömək edir və bu, öz növbəsində uğurlu tədarük zənciri idarə edilməsi sisteminin yaradılmasına kömək edir.



**2. İnformasiya**

Hazırkı dövrdə dünyada informasiyanın davamlı axını hakimdir. Müvəffəqiyyətli olmaq üçün müəssisə istehsalın müxtəlif aspektləri ilə bağlı ən son məlumatlarla daimi olaraq tanış olmalıdır. Müəyyən bir məhsula olan tələbat və tədarükün bazar tendensiyaları haqqında olan məlumatın düzgün və vaxtında biznesin bir çox səviyyələri arasında



yayılması yaxşı başa düşülə bilər. İnformasiyaya əsaslanan dünya iqtisadiyyatında məlumat çox vacibdir və biznesin hər hansı bir aspektinə dair informasiya.

**3. Mənbə**

Tədarükçülər tədarük zənciri idarəetmə sistemlərində çox vacib rol oynayırlar. Müştəriyə satılan məhsullar və xidmətlər müxtəlif xammallar vasitəsilə istehsal olunur. Buna görə də lazımi keyfiyyətli xammalın səmərəli şəkildə satın alınması zəruridir. Əgər tədarükçü xammalı vaxtında və münasib görülən büdcə əsasında tədarük edə bilmirsə, biznes zərər görməyə və mənfi etibar qazanmağa məhkumdur.Bir şirkətin yaxşı keyfiyyətli məhsullar əldə etməsi, keyfiyyətli məhsullar yarada bilməsi və bazarda nüfuzunu qoruya bilməsi vacibdir. Bu təchizatçı zənciri idarəetmə sistemində tədarükçülər üçün güclü bir rol tələb edir.



**4. İnventarlaşdırma**

Yüksək effektivliklə tədarük zəncirinin idarə olunması üçün inventarın tutulması və saxlanılması vacibdir. İnventar hər hansı məhsul və xidmət üçün lazım olan məhsul, xammaddə, və digər vacib materiallarının siyahısını əks etdirir. Bu siyahı mövcud və lazımlı ehtiyatları məhdudlaşdırmaq üçün mütəmadi olaraq yenilənməlidir. Stokun idarə edilməsi tədarük zəncirinin idarə edilməsi üçün çox böyük əhəmiyyətə malikdir, çünki stok düzgün idarə edilmədən nə istehsal, nə də satış mümkündür. Müəssisələr tədarük zənciri üzərindəki təsiri səbəbi ilə inventarlaşmaya böyük diqqət yetirməlidirlər.



**5. İstehsalat**

İstehsal bu sistemin ən vacib aspektlərindən biridir. Tədarük zəncirinin bütün digər komponentləri ardıcıl olaraq həyata keçirilir. İstehsal prosesinin başlaması üçün mallar, eləcə də inventar düzgün planlaşdırılmalı və yaxşı saxlanılmalıdır. Malların istehsalı test, qablaşdırma və hazır məhsulun çatdırılması üçün son hazırlanma vasitəsilə izlənilir.



**7. Nəqliyyat**

Nəqliyyat xammalın istehsal üçün müəssisəyə və son məhsulun bazara çatdırılması baxımından vacibdir. Hər bir mərhələdə malların vaxtında daşınmasını təmin etmək üçün  düzgün bir iş prosesinin qurulması məcburidir. Şirkət tərəfindən məhsulların etibarlı və təhlükəsiz daşınması çox böyük əhəmiyyətə sahibdir. Bu komponentə diqqət yetirən hər hansı bir şirkət malların vaxtında istehsalı və daşınmasından faydalanacaqdır. Daşınmada sıfır zərər və tranzitdə minimal ziyan təmin edilməlidir.



**8. Geri qaytarılma**

Güclü bir tədarük zəncirini meydana gətirən müxtəlif komponentlər arasında səhv göndərilmiş və ya zədələnmiş malların qaytarılması üçün bir halqadır. Hər bir prosesdə yanılma payı vardır və həmçinin texnoloji maşınlar vasitəsilə həyata keçirilmiş proseslərdə milyonda bir də olsa xəta payı ola bilər. Güclü bir tədarük zənciri qurulmasına baxmayaraq malların müxtəlif səbəblərdən qaytarılması gözləniləndir. Hətta ən yaxşı keyfiyyətə nəzarət proseslərində səhvlər baş verə bilər. Belə qaçınılmaz hallarda istehlakçıların (müştərilər) şikayətlərinə baxılmalı, zədələnmiş və ya səhv göndərilmiş mallar geri götürülməli və istehlakçıdan etik olaraq üzr istənməlidir. Bu yalnız müştərilərlə əlaqələrin yaxşılaşmasını təmin etmir, həm də şirkətin uzun müddətli strategiyasını nümayiş etdirir.



**Tədarük zənciri ilə logistika arasındakı fərqlər**

Dünyamızda, ölkəmizdə iqtisadiyyat çox sürətlə istiqamət dəyişdirməkdədir. Bu dəyişimlərə qarşı tədbir almaq və ya yenə bu dəyişmənin yaradacağı fürsətlərdən istifadə etmək üçün ediləcək ilk şey məlumatlandırılmaqdır. Yağışın nə zaman yağacağını əvvəlcədən bilənlər qazanırlar. Yağış sizin üçün bir riskdirsə, bu zaman çətirinizi özünüzlə götürsəniz islanmazsınız. Əgər çətir satırsınızsa bu da ən böyük fürsətdir. Məlumatlanmayan, tədbir görməyən hər kəs isə sizin müştəriniz olacaq. Logistika sektoru da gün keçdikcə böyüməyə davam edir. Bu böyümə nəqliyyat sayının artması və ya daşınan malın həcmi ilə əlaqəlidir. "Tədarük zənciri" və "Logistika"anlayışları çox zaman bir-birilə qarışdırıla bilir.

Logistika anlayışı bir malın istehsalçıdan istehlakçıya qədər çatdırılmasında həyata keçirilən fəaliyyətlərin cəmidir. Tədarük zənciri isə malın və ya xidmətlərin xam maddədən müştəriyə çatdırılmasına qədər olan dövrdə olan mərhələləri, məlumat axınını əhatə edir. Əslində tədarük zənciri ilə logistika arasındakı ən böyük fərq tədarük zəncirinə xam maddə istehsalının da daxil olmasıdır. Ortaq məqsədin isə müştərinin, yəni istehlakçının ehtiyaclarının qarşılanması olduğunu görə bilərik. Logistikanın həyata keçirilməsi üçün nəql, anbarlama, gömrük, qablaşdırma və paylama mərhələlərinin yerinə yetirilməsi lazımdır.

| | |
|---|---|
| **Tədarük zənciri** | Xammalın məhsullara çevrilməsi və müştərilərə çadırılmasıdır |
| **Logistika** | Tədarük zəncirində malların hərəkətidir |

Tədarük, satın alma, istehsal və logistika ilə əlaqəli olan bütün fəaliyyətlər tədarük zəncirinin idarə edilməsi prosesində cəmlənir. Ən vacibi isə tədarükçülər, distributorlar və müştərilər kimi tərəflərlə əlaqələndirməni və əməkdaşlığı əhatə edir. Göründüyü kimi logistika tədarük zəncirinin kiçik bir hissəsidir.

Logistika və tədarük zənciri idarəçiliyi arasında ən böyük fərqlərdən biri şirkət içərisində nəzərdə tutulan məqsəd və vəzifələrdir. Təşkilat departamentində logistikanın məqsədləri və hədəfləri müştərilərin təşkilatla qarşılıqlı əlaqələri zamanı maksimum məmnuniyyət əldə etmələrini təmin etməkdir. Logistik mütəxəssisi müştərilərin istədikləri malları asanlıqla doğru keyfiyyət və miqdarda əldə etməsini təmin edir. Digər tərəfdən tədarük zəncirinin idarə edilməsi şirkətin effektivlik və səmərəlilik yolu ilə rəqabət və müqayisə edilən üstünlük əldə etməsini təmin etmək məqsədi daşıyır. Daha da vacibi tədarük zəncirinin idarə edilməsi şirkətin malı mümkün olan ən yüksək qiymətlə satarkan bu məhsulu hazırlamaq üçün xam maddəni ən aşağı qiymətlə əldə etməsini təmin edir




Təşkil edildikləri müəssisələrin sayı logistika və təchizat zənciri idarəçiliyi arasındakı fərqləri vurğulamaq üçün istifadə edilə biləcək bir başqa xüsusiyyətdir. Logistika bir müəssisə daxilində yer alır, çünki logistik idarəçilikdə bir şirkətlə digər şirkətin bir yerdə yerinə yetirdiyi fəaliyyət yoxdur. Digər tərəfdən tədarük zəncirinin idarə edilməsi şirkətlə gündəlik əlaqədə olan bir çox müəssisələrlə bir yerdə yerinə yetirilir. Təchizat zəncirinin idarə edilməsi zamanı xammal tədarükçüləri, hazır malı daşıyan şirkətlər hazır məhsulları satın alan şirkətlər ilə qarşılıqlı əlaqə yaratmalıdır.

Logistika və tədarük zənciri idarəçiliyinin təkamülü və inkişafı iki termin arasındakı əsas fərqlərdən biridir. Tarixçilərin fikrinə görə logistika uzun müddətdən bəri mövcud olmuş və texnologiyanın keçmiş

texnologiyanın keçmiş zamanda mövcud olmamasına baxmayaraq zamanın sınağından keçmişdir. Tarixçilər Logistikanın keçmişdə hərbi əməliyyatlar üçün istifadə edildiyini və həm silahların, həm də hərbi heyətin daşınmasını əhatə etdiyini vurğulamaqdadırlar. Digər tərəfdən təchizat zəncirinin idarə olunması 19-cu əsrdə ortaya çıxan müasir bir aspektdir. Bu baxımdan hazırda bütün biznes qurumlarında və hökumət idarələrində nəzərə alınmaqdadır. Bundan əlavə, tədarük zəncirinin idarə edilməsi şirkət daxilində müstəqil bir şöbə və dünyanın müxtəlif təhsil müəssisələrində tədris edilən bir dərsdir.

Logistik idarəetmə və təchizat zəncirinin idarəolunması ilə məşğul olan şöbələr və şöbələrin sayında iki forma arasında bir sıra əhəmiyyətli fərqliliklər vardır. Tədarük zəncirinin idarə olunması bölmələrinin sayı logistika şöbəsi ilə müqayisədə daha çoxdur, çünki tədarük zəncirinin idarə edilməsi bir çox təşkilatlarla əlaqəlidir və qarşılıqlı fəaliyyət göstərir. Logistik idarəolunan bölmələrdən bəzilərinə inventar, saxlama və nəqliyyat daxildir. Tədarük zəncirinin idarə edilməsi məhsul təkmilləşdirilməsi və test edilməsi, müştəri xidməti və məmnuniyyəti, inteqrasiya və informasiya mübadiləsi, logistik fəaliyyətlər, icranın dəyərləndirilməsi, satınalma ilə yanaşı tədarük və istehsalat da daxil olmaqla çoxlu sayda şöbəyə malikdir.

Logistik idarəetmə və tədarük zənciri idarəçiliyi arasında əhəmiyyətli bir əlaqə var. Bir çox insanlar bu iki idarəçiliyin öz fəaliyyətlərini idarə etmək hüququna malik olan müxtəlif şöbələr olduğunu düşünürlərsə də, logistika xüsusi tapşırıqları yerinə yetirən tədarük zəncirinin idarəolunmasının bir hissəsidir. Tədarük zənciri müəssisəsinin bu idarəçilik tərəfindən təklif edilən xidmətlərinin keyfiyyətinə təsir etmədən fəaliyyətləri həyata keçirəcəyini vurğulamaq lazımdır. Bəzi təşkilatlarda əməliyyat, logistik idarəetmə şöbəsi yoxdur, amma logistik məsələləri həll edən operativ tədarük zəncirinin idarə edilməsi şöbəsinə malikdir.

| | **Logistika** | **Tədarük zəncirinin idarə edilməsi** |
|---|---|---|
| **Məqsəd və hədəf** | Müştəri məmnuniyyəti | Rəqabət üstünlüyü |
| **Əlaqədar müəssisələr** | Müvafiq vahid müəssisə | Bir çox müəssisə iştirak edir |
| **Təkamül və inkişaf** | Ənənəvi | Müasir |
| **Bir-biri ilə əlaqəsi** | Tədarük zənciri idarəetməsi çərçivəsində | Logistik tədarük zənciri idarəetməsinə daxildir |
| **Digər şöbələrlə əlaqələr** | Digər şöbələrlə minimal əlaqələr | Digər şöbələrlə əhəmiyyətli qarşılıqlı əlaqələr |

Tədarük zənciri idarəçiliyi birdən çox şirkətlə işləyə bilir. Bundan başqa müəssisə daxilində digər şöbələrlə qarşılıqlı əlaqə nəticəsində üstünlük əldə edir. Logistik idarə etmənin müxtəlif şöbələrdə aktiv rolları yoxdur. Tədarük zənciri idarəçiliyinin istehsal şöbəsi üçün tədqiqat, marketinq və xammal sifariş etməklə digər müəssisələrin işlərinə qoşulma ehtimalı daha yüksəkdir.

**Logistika** ümumiyyətlə, kompleks əməliyyatların səmərəli təşkil edilməsi və həyata keçirilməsidir. Ümumi bir iş mənasında isə logistika istehlakçıların ehtiyaclarını ödəmək üçün mənşə ilə son nöqtə arasında malların axınının idarə edilməsidir. Logistikada qida, materiallar, heyvanlar, avadanlıqlar və mayelər kimi fiziki əşyalarla yanaşı vaxt və informasiya kimi qeyri-maddi mövhumlar da idarə olunur. Fiziki əşyaların logistikasına informasiya axının inteqrasiyası, materialların işlənməsi, istehsal, qablaşdırma, inventarlaşdırma, daşınma, anbarlama və təhlükəsizliyin təmin olunması daxildir. Logistika "maddə və məhsulu müvafiq yerlərdə və müvafiq miqdarda əldə etmək, istehsal etmək və yaymaq sənəti və elmi" kimi tanınır. İlk əvvəllər logistika termini hərbi sənaye ilə bağlı olmuşdur.

**Logistikanın idarə edilməsi** tədarük zəncirinin idarə edilməsinin bir hissəsi kimi mənşə və istehlak nöqtəsi arasında müştərilərin tələblərini ödəmək üçün malların, xidmətlərin və bununla əlaqədar məlumatların səmərəli, effektiv irəliyə və geriyə axınının planlaşdırılması, həyata keçirilməsi və buna nəzarət olunmasıdır. Başqa cür desək logistikanın idarə edilməsi müştəri tələblərini qarşılamaq üçün malların, xidmətlərin, informasiyaların iki tərəfli axınını (irəli və geri) planlayan, tətbiq edən, idarə edən tədarük zəncirinin bir halqasıdır. Göründüyü kimi logistikanın idarə edilməsi tədarük zəncirinin idarə edilməsinin bir hissəsidir. Belə ki, logistika tədarük zəncirinin idarə edilməsinin ən dinamik və səy tələb edən əməliyyat sahələrindən biridir. Bu proses sifarişin alınması, məhsulun anbarlanması, işlənməsi, paketlənməsi, daşınmasını özündə ehtiva edən və sürətlə inkişaf edən bir iş intizamıdır. Beynəlxalq tədarük zəncirində paylama və təslimat əməliyyatları gedərək daha qarışıq hal alır. Müştəri yönümlü müəssisələr qiymətləri endirərkən və əməliyyatları yerinə yetirərkən müştəriləri məmnun etmək mövzusunda artan təzyiq altındadırlar. Tədarük zəncirində başqa elə bir halqa yoxdur ki, logistikada olduğu kimi günün 24 saatı həftənin 7 günü işləmək tələb olunsun. Buna görə müştərilər tez-tez məhsulun doğru zamanda çatdırılması üçün logistikaya müraciət edirlər.

Resurs istifadəsinin minimuma endirilməsi logistik sahələrdə ümumi marağı təşkil edir. Modernləşdirmə ideyası həmişə şirkətin xərclərinin azaldılmasına və mənfəətinin artırılmasına yönəlmişdir. Bütün sənaye şirkətləri məhsuldar olmaq, qazanc əldə etmək və bazarlarını genişləndirmək istəyirlər. Bunu həyata keçirmək üçün şirkətlər biznes logistikası çərçivəsində düzgün vaxtda düzgün şərtlərlə düzgün müştəri üçün düzgün yerdə düzgün miqdarda düzgün məhsulun olması üçün müxtəlif prinsiplər, strategiyalar üzərində işləyirlər.

Doğru məhsulun doğru miqdarda və düzgün vəziyyətdə doğru zamanda doğru müştəri üçün doğru qiymətə doğru yerdə olması.




Logistika aşağıdakı yarımbölmələrə bölünür:

- Hərbi logistika
- Biznes logistika
- Tədarük logistikası
- Paylama logistikası
- Satış logistikası
- Nəqliyyat logistikası
- Ehtiyat logistikası
- Anbar logistikası
- İnformasiya logistikası
- Kompleks logistika
- Ekoloji logistika
- Qənaət logistikası
- Şəhər logistikası

**Hərbi logistika**

Strategiya və taktika ilə yanaşı, logistika hərbi rəhbərliyin əsas sahələrindən biridir. Hərbi logistika ordunun tədarük ehtiyatının saxlanması ilə bağlıdır, çünki resurs və nəqliyyat olmadan silahlı qüvvələr müdafiəsizdir. Hərbi logistika keçmiş zamanda da mövcud olmuş və müasir hərb elmi üçün əhəmiyyətli bir sahə olduğu üçün qabaqcıl tətbiqlər hazırlanmışdır. Hərbi logistikada logistik mütəxəssisi qaynaqların hara və nə zaman daşınmasını idarə edir. Hərbi qüvvələrin hərəkəti və saxlanmasının planlaşdırılması və həyata keçirilməsi də bura daxildir. Hərbi əməliyyatlarla əlaqəli olan istiqamətlər:

- Materialların dizayn, inkişaf etdirilməsi, əldə edilməsi, saxlanması, bölüşdürülməsi, təhvil verilməsi və materialların yerləşdirilməsi
- Heyətin nəqli
- Qurğuların alınması və ya qurulması, saxlanılması, istismarı və yerləşdirilməsi
- Xidmətlərin alınması və ya verilməsi.
- Tibbi və səhiyyə xidmətinə dəstək

**Biznes logistikası**

Biznes logistikası bütün sənaye sahələrini əlaqələndirir və məqsədi layihənin bütün dövrlərini, tədarük zəncirlərini, nəticədə ortaya çıxan səmərənin idarə edilməsidir. Keçən əsrdə ortaya çıxan biznes logistikası termini keçən zaman ərzində getdikcə qloballaşdırılmış təchizat zəncirində məhsulların çatdırılmasının mürəkkəbliyi səbəbindən inkişaf etmişdir. Biznesdə logistika daxili diqqət mərkəzinə (daxili logistika) və ya xarici diqqət mərkəzinə (xarici logistika) sahib ola bilər.

## 1.2. LOGİSTİK PROSESİ TƏSVİR EDİR

LOGİSTİK PROSES

Tərif olaraq, logistik proses malların, xidmətlərin və logistik məlumatların hərəkəti ilə əlaqədar olaraq malların, xidmətlərin və məlumatların axını ilə bağlıdır. Buna baxmayaraq, logistika fəaliyyətləri müəssisələr arasında əhəmiyyətli dərəcədə dərəcədə fərqlənir. Mallar müəssisələr daxilində və arasında fiziki axınlar yaradır. Bir məhsulun istehsalı və istehlakı arasında məsafə və zaman fərqi vardır. Mallar tədarük yerindən götürülərək tələb olunan yerdə saxlanıla, inventarlaşdırıla və nəql edilə bilər. Nəticədə, bir məhsulun paylanması üçün axınların idarə edilməsinə sifarişlərin işlənməsi, nəql etmə, inventarizasiya, anbarlama, malların yığılması və qablaşdırma kimi fəaliyyətlər aiddir.




**Fiziki mal üçün logistik fəaliyyətlər**

"Məhsullar"dan fərqli olaraq xidmət qeyri-maddi bir fayda təşkil edir. Daha dəqiq desək bu halda xidmətlərin istehsalı və istehlakı eyni anda baş verir. İstehsal başladıqdan sonra istehlak prosesi başlayır. İstehsal tamamlandıqda bir xidmət tamamilə istehlak olunur. Xidmətlər üçün istehsal və istehlak arasında vaxt və məsafə fərqi yoxdur. Nəticədə istehsalat sənayesində olduğu kimi heç bir xidmətin inventarizasiyasına ehtiyac yoxdur.




**Xidmət üçün logistik fəaliyyətlər**

Göründüyü kimi, "Xidmətlərin saxlanması və axını" malların axınının idarə edilməsindən fərqli logistik fəaliyyətlərdən ibarətdir. Xidmət logistikasında nəql etmə, inventarizasiya, anbarlama, malların yığılması və qablaşdırma kimi fəaliyyətlər tələb olunmur. Müştərilərə xidmətin fayda verməsi üçün xidməti təmin edənin xidmətləri təqdim etmək və xidmət çatdırılmasını əlaqələndirmək qabiliyyətini idarə etməsi lazımdır. Potensialın idarə edilməsinə əlavə olaraq, Xidmət koordinasiyası da xidmət sənayesində logistikanın əsas fəaliyyət növlərindən birini təşkil edir. Xidmətin çatdırılması dinamik planlaşdırma, göndərmə və rəyin alınmasını əhatə edir. Ümumi məqsəd müəssisə daxilində hər bölmənin məhsuldar çatdırılmanı təmin etmək üçün fəaliyyətlərini sinxronlaşdırmaqdır.

"Mənbə ilə istehlak nöqtəsi arasında" logistik prosesinin əhatə dairəsi bir müəssisənin tədarükçüləri və müştərilərini əhatə etməsi kimi konseptləşdirilmişdir. Xüsusən, tədarükçülərdən müştərilərə doğru olan logistik fəaliyyəti "düzünə logistika", əks istiqamətdə logistika axınları isə "əks logistika" anlayışını təşkil edir. Belə geniş logistika yalnız müəssisənin müştərilərinin (xarici müştərilərin) deyil, həm də müəssisə daxilində olan digər funksional bölmələrin müştərilərinin (daxili müştərilər) arzu və tələblərini ödəmək üçün məsuliyyət daşıyır. Məsələn: istehsal prosesinin sonundan mal/xidmət axınının idarə edilməsi nəticəsində xarici müştərilərin tələbləri ödənilir (xarici logistika/ xidmətin idarə edilməsi), marketinq, tədarükün idarə edilməsi, materiallar və xidmətlərin istehsala qədər olan hissəsi daxili logistikadır. İstehsal prosesində satınalma və əməliyyat departmanlarının tələblərini təmin etmək məqsədi daşıyır (materiallar / tədarüklər/ davam edən işlərin idarə edilməsi).

İstehsalat müəssisəsi daxilindəki bütün logistika prosesi, adətən materiallar, davam edən işlər və bitmiş məhsullar daxil olmaqla, fiziki logistika axınları kimi təsvir olunur.




**İstehsalat sənayesində logistika prosesləri**

Bununla yanaşı, xidmət təminatçılarının logistik prosesləri həm xidmət, həm də məhsul logistika fəaliyyətlərindən ibarət ola bilər. İstehsalat sənayesində təqdim edilən xidmət göstərmək üçün heç bir fiziki materiallar tələb olunmasa da, xidmətin göstərilməsi müəyyən fiziki vasitələrə ehtiyac ola bilər, məsələn, səhiyyə üçün dərman vasitələri və ya avtoservis xidmətləri üçün ehtiyat hissələri tələb edə bilər - burada əsas maraq yalnız müştəriyə xidmət vermək üçün yolu tapmaqdır.




İstehsalat sənayesində logistika prosesləri

### 1.3. LOGİSTİK FUNKSİYALARI ŞƏRH EDİR

LOGSİTİK FUNKSİYALAR

Logistika fiziki paylanmanın idarə edilməsi kimi də bilinir. Logistika malların fiziki paylanması üçün bir çox müxtəlif şirkətlər tərəfindən həyata keçirilən bir fəaliyyətdir. Bu mallar paylayıcılara, dilerlərə və son olaraq son istehlakçıya çatdırılmalıdır. Logistik malların şirkətdən vasitəçilərə və ya son istehlakçıya çatdırılması üçün vasitədir. Ancaq logistika yalnız "nəql etmə" demək deyil. Bir şirkət tərəfindən istifadə olunan bir çox logistik fəaliyyətlər və logistik funksiyalar vardır.

Məsələn: Siz anbardan satıcıya mal vermək məcburiyyətindəsiniz, anbarda sahib olduğunuz inventarı tənzimləməniz lazımdır (mallar çıxdıqları üçün). Eynilə, anbardan malların çıxdığı və satıcıya çatdığı haqqında məlumat almaq lazımdır. Malların uyğun şəkildə işlənməsi və arzu olunan halda satıcıya çatdırılması təmin edilməlidir. Satıcıdan hər hansı bir qaytarılma varsa, onlar da hesaba alınmalıdır. Göstərilən nümunədən də göründüyü kimi diqqət edilməsi lazım olan logistik funksiyalar vardır.

**1. Sifarişlərin işlənməsi**




Bir müəssisədəki logistik fəaliyyətlər sifarişlərin işlənməsi ilə başlanır. Ticarət şöbəsi ödəmə şərtləri və çatdırılma şərtlərini təmin edən və sifarişin şirkət daxilində işlənilməsini təmin edən bölmədir. Bu bölmə sifarişçidən sifarişi qəbul edir və onu anbara yönləndirir. Əgər müştəri ödənişi həyata keçibsə o zaman anbarda sistemə sifariş daxil edilir və anbardan mallar toplanır. Belə olduqda sifarişin toplanması nəticəsində anbardakı inventar azalır və bu sistemdə qeyd olunur. Prosesin aparılması zamanı diqqətli olmaq lazımdır, çünki edilən səhvlər logistik prosesə mənfi təsir edə bilər.

**2. Malların işlənməsi**

Malların işlənməsi anbarda malların hərəkətidir. Effektiv şəkildə sifarişə əsasən malların anbardan toplanması kimi də başa düşülür. Adi iş günündə belə anbarda davam edən bir fəaliyyətdir. Bu proses vacibdir. Bir nümunəyə baxsaq, 100 malı olan bir mağazada əgər mallar düzgün yerləşdirilməmişsə, sifarişin toplanması üçün bütün malların yerini dəyişdirmək lazımdır. Bu isə zaman və qüvvə israfıdır. İndi isə mal dövriyyəsi 100 dəfə çox olan bir müəssisəni təsəvvür etsək. Belə bir hal böyük problemlər yaradacaqdır. Bu səbəblə malların işlənməsi logistikanın çox vacib bir funksiyasıdır.

Anbar daxilində malın asan daşınması üçün uyğun şəkildə yerləşdirilməsi logistika idarəçiliyində vacib fəaliyyətdir. Anbar böyüdükcə daha da vacib olur. Məsələn: Amazonun gündə 70000 paket mal göndərdiyi təxmin edilir. Amazon malların işlənməsi üçün robotlaşmış, süni intelekt və insan kombinasiyalarından istifaə edir. Amazonun ən yaxşı mal daşıma təchizatı və strategiyası istifadə etməmiş haldakı qarışıqlığı təsəvvür etmək belə mümkün deyil.

**3. Anbarlama**

Malların istehsalı bir ölkədə, paylanması isə bütün dünyaya ola bilər. Bunun üçün anbarlar çox vacib bir rol oynayırlar. Anbardakı mühüm məqam anbarın satıcıya və paylanma nöqtələrinə yaxın olması və malların asan çatdırılmasına kömək etməsidir. Anbarların yerləşdiyi yer həmçinin ana anbarda olan təzyiqləri azaldır (məhsulun çox hissəsini təşkil edən böyük anbarlar). Tələbdə artış, istehsalatda azalma olarsa, bu anbarlarda təzyiq yarada bilər.

**4. İnventara nəzarət**

Əgər sifariş 10 ədəd maldırsa, lakin anbarda 100 ədəd mal varsa, bu o demədir ki, şirkət 90 istifadəsiz mala sərmayə qoyub. Bu mal anbarda qalan puldur. Başqa bir şirkət 500 ədəd mal tələbi olmasına baxmayaraq, bu tələbin az olacağını düşünüb 200 ədəd mal istehsal etmişlər. Bu zaman bu şirkət bu tələbi ödəmə fürsətini itirmiş oldu. Mükəmməl şirkət bu halda 100 ədəd mal emal edən, 50 ədəd malı tələb əsasında digər yarısını isə tələbin artmasını hesablayan şirkət olacaq. Beləliklə, onlar tələbi davamlı olaraq izləyirlər və tələb artımı olduqda belə bu vəziyyətə hazırdırlar.
Yuxarıdakı misallarla inventara nəzarətin vacibliyini müşahidə edə bilərik. İnventara nəzarət xüsusilə müxtəlif istehsal üsullarından sonra logistikanın ən vacib funksiyalarından biridir.

**5. Qablaşdırma**

Qablaşdırmanın iki növü vardır. Bunlardan biri supermarketlərin rəflərində məhsulun cəlb ediciliyi üçün, digəri isə nabrda saxlanma, daşınma və s. zamanı zədələnmələrdən qrunması üçün. İkinci halda mallar kütləvi qablaşdırılır və bu malın bir yerdən başqa yerə daşınmasını asanlaşdırır. Malın qablaşdırılması vacib bir funksiyadır, əks halda mal zərər görəcək və şirkət üçün böyük bir xərcdir. Buna görə də ixrac bazarlarında qablaşdırmaya çox pul xərclənir. Qablaşdırma malın qiymətinin 1-2%-inə başa gələr bilər, düzgün olmadıqda isə zədələnmə baş verəcək və mal zay olduğu üçün 100% xərcə səbəb olacaq.

**6. Nəql etmə**

Ən bahalı logistik funksiyalardan biri nəql etmədir. Nəql etmənin bahalı olma səbəbi- yanacaqdır. Benzin, dizel və s. yanacaqlardan istifadə olunaraq malların nəqli həyata keçirilir. Bunun üçün şirkətlər bu xərclərin azaldılmasının yollarını axtarırlar, çünki bu hər hansı bir şirkət üçün ən dəyişkən xərcdir. Daşıma malın şirkətdən paylayıcıya  və ya satıcıya, satıcıdan isə son istehlakçıya çatdırılmasını təmin edir. Əsasən şirkətlər malın paylayıcıya və ya satıcıya çatdırılmasına qədər məsuliyyət daşıyırlar. Paylayıcı və satıcı isə malın son müştəriyə verilməsinə görə məsuliyyət daşıyır. Nəql etmə satıcının karını azaldan bir faktordur. Buna görə nəql etmə xərclərinin azaldılması vacibdir.

Bir şirkətin anbarlaması və inventarlaşması nə qədər yaxşı olarsa o zaman nəql etmə xərcləri azala bilər.

# TƏLİM NƏTİCƏSİ 1



### 1.4. LOGİSTİK STRATEGİYALARI QİYMƏTLƏNDİRİR

LOGİSTİK STRATEGİYALAR

Bir şirkət tərəfindən logistik strategiya hazırlandıqda logistik şirkətin ən uyğun maliyyəli xidmət səviyyəsi aşkar edilir. Tədarük zənciri davamlı olaraq dəyişdiyi və inkişaf etdiyi üçün şirkət müəyyən mallar, müəyyən ölkələr və ya müəyyən müştərilər üçün müxtəlif logistik strategiyalar inkişaf etdirə bilir. Xatırladığımız kimi lojistikanın əsas məqsədi, müştərilərin istədiyi malları və istədikləri zaman çərçivəsində çatdırmaq və bunu mümkün qədər az pul xərcləməklə əldə etməkdir. Bu isə tədarük zəncirində lojistik tərəfdaşlarla işləmək deməkdir.

**Logistik strategiyalar niyə tətbiq edilir?**

Tədarük zənciri daim dəyişir və bu logistik təşkilatlara mütləq şəkildə təsir edəcəkdir. Tədarük zəncirinin dəyişikliklərinə uyğunlaşmaq üçün şirkətlər logistika strategiyaları hazırlamalı və tətbiq etməlidirlər. Bu şirkət tərəfindən gözlənilən dəyişikliklərin təsirini müəyyən etmək və xidmət səviyyəsinin azaldılmamasını təmin etmək üçün təşkilati və ya funksional dəyişikliklərə imkan verir.

**Lojistik Strategiyanın inkişaf etdirilməsinə nələr daxildir?**

Bir şirkət lojistik təşkilatının dörd fərqli səviyyəsinə baxaraq logistik strategiyanı inkişaf etdirməyə başlaya bilər.

**Stateji:** Şirkətin məqsədlərinin və strateji tədarük zəncirinin qərarlarının araşdırılması vasitəsilə logistik strategiyanın şirkətin yüksək səviyyəli məqsədlərinə necə təsir göstərdiyini nəzərdən keçirilməlidir. Üst strateji səviyyədir və müştəri xidməti strategiyasını müəyyən edir. Müştəri xidmədləri strategiyası şirkətin logistika zəncirinin qurulması və fəaliyyəti arxasındakı hərəkətverici qüvvədir. Birdən çox bazarda fəaliyyət göstərən təşkilatlar daha mürəkkəb müştəri xidməti strategiyasını inkişaf etdirməlidir və bu hər bir bazar üçün müxtəlif logistika strategiyasına malik ola bilərlər. Müştəri xidməti strategiyasını müəyyən etmək üçün əsas xərclər, əlavə xidmətlər, asanlıqla uyğunlaşma arasında düzgün balansı tapmaqdır. Lakin bəzi şirkətlər müştəri xidmətlərini ən yaxşı amil kimi təqdim etmək strategiyasını qəbul edirlər və sonra digərlərini (xərclər, əlavə xidmətlər, asanlıqla uyğunlaşma, adaptasiya), ikinci növbəli amillər kimi balanslaşdırmağı unudurlar.

**Struktur:** Logistik strategiya logistik təşkilatın struktur məsələlərini, məsələn, anbar və paylama mərkəzlərinin optimal sayını və ya müəyyən bir istehsal müəssisəsində hansı məhsulların istehsal edilməsini araşdırmalıdır.

**Funksional:** Strategiya vasitəsilə logistik təşkilat funksional üstünlük əldə etməlidir.

İcra: Uğurlu logistika strategiyasının inkişaf etdirilməsinin əsası təşkilat çərçivəsində

**İcra:** Uğurlu logistika strategiyasının inkişaf etdirilməsinin əsası təşkilat çərçivəsində strategiyanın necə həyata keçirilməsidir. İcra planına informasiya sisteminin inkişafı və ya konfiqurasiyası, yeni siyasət və prosedurların tətbiqi və dəyişikliklərin idarə olunması planının işlənib hazırlanması daxildir.




Logistik strategiyaların səviyyələri

**Logistik strategiyanı yaxşılaşdırma üsulları**

Logistik strategiyanızı yenidən qurmağa (və ya qurmağa) başlamazdan əvvəl əsas fəaliyyət göstəricilərinizi müəyyənləşdirməlisiniz. Buna müştəri sifariş tsikli, istehsalatdan anbara tsikli, anbardan toplanma və çatdırılma tsikli, inventarlaşmanın düzgünlüyü və bütün prosesin ümumi maliyyə dəyəri daxildir. Əgər bir şirkətdə bunlar həyata keçirilmirsə dərhal başlamaq lazımdır.

Dəyişikliklərin çoxluğu səbəbindən yəqindir ki, insan səhvi bir nöqtədə qaçınılmazdır. Öz logistikasını idarə etmək üçün ən yaxşı işi görən müəssisələr bu həqiqəti bilir və daim avtomatlaşdırmaya investisiya edirlər. Bu həmçinin kiçik bizneslər üçün də nəzərdə tutulur. Daha az maliyyə ilə də avtomatlaşdırmadan istifadə etmək olar.

Kiçik müəssisələr üçün şirkətin inkişafında bəzən hər şey mümkün deyildir. Lakin bu anda belə logistik strategiya haqqında düşünün. Bu daha sonrakı mərhələlrdə işi asanlaşdırır.

Hər şey daşınabilən olmalıdır. Müəssisələrin anbarlarında yer sonsuz deyildir. Buna görə bəzən malların yerinin dəyişdirilməsi tələb oluna bilər. Bunu vaxt, güc itkisinə və mala zərər vurmadan etmək lazımdır.

Səmərəliliyin artırılması üçün xarici mənbələrdən istifadə etmək lazımdır. Şirkət artan tələb qarşısında bunu qarşılaya bilməlidir. Bunun üçün digər logistik şirkətlərlə əməkdaşlıq həll yolu ola bilər.

Yük xərclərini optimallaşdırmaq üçün daşıma büdcənizi idarə etmək yollarını tapmaq səmərəliliyin artırılması üçün vacib vasitədir. Doğru daşıma modelini tapmaq, müvafiq qablaşdırmaya investisiya qoymaq və müqavilələri daim ardıcıl olaraq nəzərdən keçirmək daşıma xərclərinin yaxşı idarə olunmasının bir neçə yoludur.

Göndərmə qiymətləri və şərtlərində şəffaf olmaq vacibdir. Müştərilərinizə qarşı dürüst olmaq həmişə əhəmiyyətlidir. Müştərilərin narahat olduqları şey məlumatları bilməmək və ya doğru məlumata sahib olmamaqdır.  Bir logistika şirkətində qiymətlərinizdə tamamilə şəffaf olmaq və ödənişlərinizin şərtləri ilə müştərilərinizin tanış olması onlara rahatlıq verir.

## 1.5. LOGİSTİKA TƏŞKİLATINI VƏ PROSESİNİN TƏŞKİL EDİLMƏSİNİ ŞƏRH EDİR

### LOGİSTİK TƏŞKİLAT

Logistik şirkətlər digər təşkilatlara logistik həllər təqdim edirlər. Xüsusilə, bu xidmətlər yük, anbar və inventarizasiyanın idarə edilməsini əhatə edir. Müəssisələr tez-tez logistik təşkilatlara xərcləri azaltmaq və onların təchizat zəncirlərində effektivliyini artırmaq üçün müəyyən funksiyaları yerinə yetirmək üçün müraciət edirlər. Logistika şirkətləri, ümumiyyətlə, **üçüncü tərəf logistik xidmət təminatçılarıdır (3 PL)** və xüsusi lojistik sahələrində ixtisaslaşırlar.

Öz anbar təsisləri olan bir müəssisə nəqliyyat üçün üçüncü tərəf logistika xidmət təminatçılarından istifadə edə bilər. Dördüncü tərəf logistik xidmət təminatçıları olan şirkətlər bir şirkət üçün hərtərəfli tədarük zənciri həlləri hazırlayıb, təqdim edirlər. Bu isə özündə üçüncü tərəf logistik xidmət təminatçılarının istifadəsini əhatə edir.

Logistikada üçüncü tərəf xidmət logistikası bir şirkətin paylama, anbarlama xidmətlərinin əsaslarını xarici qaynaq olaraq üçüncü tərəf şirkətlərin istifadəsidir. Üçüncü tərəf logistik təminatçıları malların tələblərinə görə ölçüləbilən və müştərilərin ehtiyaclarına görə xüsusilə seçilən anbarlar və nəqliyyat xidmətlərində ustalaşmışdırlar. Ümumilikdə, xidmətlər tədarük zəncirinin halqalarını birləşdirən xidmətlər kimi malların istehsalı və tədarükü ilə əlaqəli digər xidmətləri də əhatə edərək logistik prosesdən kənara çıxırlar. Bu cür inteqrasiya olunmuş xidmət təminatçıları **üçüncü tərəf tədarük zənciri idarəsi təminatçıları** və ya tədarük zənciri idarəsi

xidmət təminatçıları olaraq müəyyən edilir. Üçüncü tərəf logistik xidmət təminatçıları isə tədarük zənciri daxilində anbarlama, nəql etmə və ya xammadə təminatı kimi müəyyən funksiyaları yerinə yetirir. Üçüncü tərəf logistika təminatçıları arasında nəqliyyat şirkətləri, kuryer şirkətləri və daşıma xidmətlərini təqdim edən digər şirkətlər vardır.

**Birinci tərəf logistik xidmət təminatçıları (1 PL)** - müəyyən mal və ya daşıma üsulunda ixtisaslaşmış, müəyyən bir coğrafi ərazidəki yeganə xidmət təminatçılarıdır. Məsələn: daşıma şirkətləri, liman operatorları, anbar şirkətləri. Bir istehsal firmasının logistika şöbəsi, eyni zamanda öz daşıma və anbarlama vasitələrinə sahibdirsə birinci tərəf logistik xidmət təminatçısı ola bilər.

**İkinci tərəf logistik xidmət təminatçıları (2 PL) -** ixtisaslaşmış logistika xidmətlərini birinci tərəf logistik xidmət təminatçılarından daha geniş əhatədə (beynəlxalq) yerinə yetirirlər. Ümumiyyətlə, ikinci tərəf logistik xidmət təminatçıları ilə müştərilər arasında, əksərən qısa müddətli daşıma vergilərinin şərtlərini tənzimləyən çərçivə müqavilələri bağlanır. İkinci tərəf logistik xidmət təminatçıları kargonun işlənməsi, daşıma və anbar idarəsi fəaliyyətlərində yük maşınları, forkliftlər, anbarlar və s. kimi şəxsi və xarici logistika qaynaqlarını təmin etməkdədir. Bu təminatçılar qloballaşma və şirkətlərin öz fəaliyyətlərinə diqqət yetirməsi üçün logistik fəaliyyətlərə xarici qaynaqla təmin etməyə başladıqları zaman ortaya çıxmışdır. Məsələn: kuryer, paket xidmətləri, okean gəmiləri, daşıma şirkətləri və nəqliyyat təminatçıları.



İkinci tərəf logistik xidmət təminatçısı ilə üçüncü tərəf logistik xidmət təminatçısı arasında ən əhəmiyyətli fərq 3 PL-in hər zaman müştəri sisteminə inteqrasiya etmiş olmasıdır. 2PL inteqrativ deyil, 3 PL-in əksinə olaraq sistem inteqrasiyası olmayan sadəcə xarici qaynaq logistik təminatçısıdır.

İkinci tərəf logistik xidmət təminatçıları yalnız bir müraciət əsasında işləyir. 3 PL isə hər zaman yaxın gələcəkdəki iş yükü haqqında məlumatlıdır. Texnologiya inkişaf etdikcə 3 PL-in iş yükünü bildirilmə forması texnologiyaya inteqrasiya edir. 2 PL və 3 PL arasındakı digər bir fərq isə xidmətlərin müəyyən edilməsi və müştəri istəyinə görə dəyişdirilməsidir. Əsasən 2 PL sadəcə standart xidmətlər təqdim edərkən, 3 PL müştəri istəyinə görə xidmətləri dəyişdirir və fərdiləşdirir. Bu üçüncü tərəf logistika bazarında olan uzun müddətli müqavilələr ilə mümkün olur. Daha bir ayırd edici nöqtə vardır: müqavilələrin dayanıqlılığı. 3 PL müqavilələri uzun müddətli müqavilələrdir. 2 PL müqavilələri isə aşağı dayanıqlılığa malikdir, beləcə müştəri bazar və qiymət dəyişikliklərinə cavab verərkən çevik olur.

Qlobal sferada fəaliyyət göstərən şirkətlər üçün eyni zamanda təchizat zəncirini inkişaf etdirmək və riskləri azaltmaq, sürəti artırmaq və xərcləri azalmaq ümumi texnoloji həll tələb edir. **Dördüncü tərəf logistik xidmət təminatçılarının (4PL)** sahib olduqları nəqliyyat vasitələri və anbarı yoxdur. Onların səmərəliliyinin artırılması məqsədi ilə bir təchizat zəncirində paylayıcı və inteqrasiya funksiyası var.

**Beşinci tərəf logistik xidmət təminatçıları (5PL)** - tədarük zənciri idarəsini təmin edir və müştərilərlə sistem əsaslı məsləhətçilik və tədarük zənciri idarə edilməsi xidmətləri təqdim edir. Texnoloji inkişaf və tədarük zəncirinin və şirkət daxili artımlar üçüncü tərəf logistik xidmət təminatçılarına nisbətən yeni bir modeli meydana gətirdi.

## 1.6. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



Tədarük zəncirinə daxil olan şirkətinizin olduğunu düşünün. Hansı məhsulu istehsal edərdiniz? Hansı xammalı hardan təmin etmək imkanınız olduğunu müəyyən edin. Məhsulu kimlərə və hansı qiymətə satacaqsınız? Daşınma zamanı hansı nəqliyyat modelindən istifadə edəcəksiniz? Məhsulunuzu anbarda saxlayacaqsınızsa, anbarda saxlama müddətini müəyyən edin. (Sinif daxilində qruplara bölünün. Hər qrup təqdimat hazırlamalıdır.)

- Tədarük zəncirinin idarə edilməsi və logistika arasındakı fərqi araşdırın. Bu haqda esse yazın.
- Azərbaycanda logistikanın və tədarük zəncirinin idarə edilməsinin güclü tərəfləri, zəif tərəfləri, imkanlar və təhlükələrə aid araşdırmalarınızı analiz edərək formanı doldurun.

# TƏLİM NƏTİCƏSİ 1




- Qlobal logistika şirkətləri haqqında araşdırma edin. Şirkətlərin siyahısını hazırlayın.

| № | Şirkətin adı | Daşıdığı mallar | Fəaliyyət göstərdiyi ölkə |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

- Logistikanın yaranma səbəblərini araşdırın və buna aid cədvəl hazırlayın.

- Sinif daxilində hər qrupda 4 (5) tələbə olmaqla 4 (5) qrupa bölünün. Hər bir qrup birdən dördə (beşə) qədər nömrələnir. Müəllimin əvvəlcədən hər qrup üçün hazırlamış olduğu "Logistik funksiyalar (məsələn; anbarlama, daşıma, inventarlaşdırma və s.)" materialları qrup daxilində öyrənin. Sonradan hər qrupdan bir nəfər olmaqla yeni qruplara bölünün. Öyrəndiyiniz məlumatları qrup daxilində yoldaşlarınıza öyrədin. Müəllimin suallarını cavablandırın.

- Fiziki mal üçün logistik fəaliyyətlər ilə xidmət üçün logistik fəaliyyətlərin fərqinə dair video material hazırlayın. (Qruplarla iş)

- Logistik şirkətdə daşıma xərclərinin azaldılması üçün görülə biləcək tədbirləri araşdırın.

- Logistik xidmət təminatçılarının rollarını müəyyənləşdirmək üçün bu funksiyaları həyata keçirən şirkətləri araşdırın.

- Amazonun fəaliyyətinə dair təqdimat hazırlayın.

### 1.7. QİYMƏTLƏNDİRMƏ

Öyrənmə prosesinə bağlı olan qiymətləndirmə meyarı:

**“1.1. Tədarük zəncirinin mahiyyətini və tədarük zəncirində logistikanın rolunu izah edir.”**

1. Tədarük zəncirinin mahiyyətini izah edin.
2. Tədarük zəncirinin hansı halqaları vardır?



3. Tədarük zəncirinin idarə edilməsinin 8 komponentini sadalayın.



4. Logistika və tədarük zəncirinin idarə edilməsinə aid olan xüsusiyyətləri oxla birləşdirin.
5. Logistikanın mahiyyətini izah edin.
6. Logistik prosasdə 7D prinsipi nədir?

**"1.2. Logistik prosesi təsvir edir."**
1. Logistik proseslərin hansı növləri var?
2. Fiziki mal üçün logistik fəaliyyətlər ilə xidmət üçün logistik fəaliyyətlərin fərqini izah edin.
3. Fiziki mal üçün logistik fəaliyyətlər və xidmət üçün logistik fəaliyyətləri sxematik olaraq təsvir edin.
4. Düzünə və əksinə logistika nə deməkdir?
5. Logistik prosesdə informasiya axınının məqsədi nədir?
6. Daxili və xarici logistika nə deməkdir?

**"1.3. Logistik funksiyaları şərh edir."**
1. Logistik funksiyalar hansılardır?
2. Logistik funksiyalar hansı qruplar üzrə təsnif edilir?

**"1.4. Logistik strategiyaları qiymətləndirir."**
1. Logistik strategiyaların səviyyələri hansılardır?
2. Logistik strategiyaları yaxşılaşdırma üsullarını sadalayın.

**"1.5. Logistika təşkilatını və prosesinin təşkil edilməsini şərh edir."**
1. Logistik xidmət təminatçıları hansılardır?
2. Birinci tərəf logistik xidmət təminatçıları hansılardır?
3. Birinci tərəf logistik xidmət təminatçılarının funksiyaları hansılardır?
4. İkinci tərəf logistik xidmət təminatçıları hansılardır?
5. İkinci tərəf logistik xidmət təminatçılarının funksiyaları hansılardır?
6. Üçüncü tərəf logistik xidmət təminatçıları hansılardır?
7. Üçüncü tərəf logistik xidmət təminatçılarının funksiyaları hansılardır?
8. Dördüncü tərəf logistik xidmət təminatçıları hansılardır?
9. Dördüncü tərəf logistik xidmət təminatçılarının funksiyaları hansılardır?
10. Beşinci tərəf logistik xidmət təminatçıları hansılardır?
11. Beşinci tərəf logistik xidmət təminatçılarının funksiyaları hansılardır?

## 2.1. SIĞORTANIN LOGİSTİK ƏMƏLİYYATLARDA ƏHƏMİYYƏTİ VURĞULAYIR

SIĞORTA ANLAYIŞI

İqtisadi kateqoriya olan sığorta maliyyənin tərkib hissəsidir. Maliyyə sisteminin tərkib hissəsi olmaqla sığorta iqtisadi kateqoriya kimi müxtəlif fövqəladə hallar baş verdikdə dəyən ziyanın ödənilməsi və vətəndaşların şəxsi həyatları ilə bağlı hadisələr zamanı onlara maliyyə yardımı göstərilməsi ilə əlaqədar məqsədli pul vəsaiti fondlarının yaradılması və istifadəsi prosesidir. Məqsədli sığorta fondlarının formalaşması, fiziki və hüquqi şəxslərin maddi itkilərinin ödənilməsi pul vəsaitinin dövranı vasitəsilə iqtisadi münasibətlərin köməyi ilə həyata keçirilir. Buradan da göründüyü kimi sığorta münasibətləri pul vəsaiti fondlarının formalaşması və istifadəsi ilə əlaqədar meydana gələn yenidən bölgü münasibətləridir.




Daha geniş mənada sığorta müəssisə və təşkilatların, fərdlərin vəsaiti hesabına xüsusi ehtiyyat pul vəsaiti fondlarının yaradılması və onun nəzərdə tutulmayan hallar, bədbəxt hadisələr, təbii fəlakətlər və digər əlverişsiz hadisələr nəticəsində dəymiş zərərin ödənilməsi və habelə, əhaliyə, onların həyatında müxtəlif hadisələr baş verdikdə sığorta təminatını ödəmək üçün istifadəsini özündə əks edən iqtisadi münasibətlər sisteminin məcmusudur.

Sığortanın obyekti kimi sığortalını həyatı, sağlamlığı, iş qabiliyyəti, vətəndaşların, təşkilatların, müəssisələrin əmlakları, əmlak mənafeləri, nəqliyyat vasitələri və yüklər, risklər, məsuliyyət və s. çıxış edir.

Sığortada iki tərəfin iştirakı zəruridir: sığorta etdirən və sığorta edən. Sığorta edən kimi dövlət, səhmdar və ya sığorta fondunu yaratmaq və istifadə etmək səlahiyyətinə malik olan digər sığorta təşkilatları çıxış edir. Sığorta etdirən kimi isə dövlət, bələdiyyə, kooperativ, səhmdar, hüquqi və fiziki şəxslər çıxış edir.

Bazar münasibətlərinə keçid şəraitində təsərrüfatın müxtəlif sahələrində sığortanın istifadəsilə bir sıra anlayışlar meydana çıxır. Bu sığorta elementlərinin tətbiqi mülkiyyətin bütün formalarını, ailə münasibətlərini əhatə edərək sığorta ilə maraqlananlar arasında xeyli genişlənmişdir. Sığortada

genişlənmişdir. Sığortada xüsusi sığorta anlayışlarından istifadə olunur ki, bu da tərəflər arasında qarşılıqlı münasibətləri asanlaşdırır. Sığorta anlayışlarının köməyi ilə hər bir konkret sığorta forması tənzimlənir və bu sığorta iştirakçılarının hüquqi vəzifələrində ifadə edilir. Sığorta anlayışlarının sığortanın təşkili və idarə edilməsində böyük rolu var. Sığortanın anlayış toplusu çox zəngin olduğundan ancaq bir sıra mühüm anlayışların izahı aşağıda verilib:

**Sığortalı** - sığortaçı ilə müqavilə bağlayan (sığorta etdirən) və ya xeyrinə sığorta müqaviləsi bağlanan (sığorta olunan), yaxud qanuna görə sığortalanmış sayılan fiziki şəxs (fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, eləcə də fəaliyyət qa-biliyyəti olmayan şəxslərdən başqa) və ya hüquqi şəxsdir;

**Sığortaçı** - yalnız sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüquqi şəxs olan sığorta təşkilatıdır;

**Yenidən sığortaçı** - müvafiq sığorta təşkilatıdır. Yenidən sığorta bir çox ölkələrdə məcmu sığorta fondu vəsaitlərinin toplanmasına lazımi şərait yaradan bir vasitə kimi həyata keçirilir.

**Sığorta riski** - ehtimal olunan elə hadisədir ki, onun baş verməsinə qarşı sığorta aparılır. Sığorta riski sayılan hadisənin təsadüf əlamətləri olmalıdır. Ümumiyyətlə “sığorta riski” anlayışı dəhşətli hadisələrdən zərərdəymə ehtimalını və təhlükə riskini əks etdirir. Riyazi hesablama baxımından ehitmal sığorta tariflərinin tətbiqində əsas rol oynayır. Yəni hadisənin xarakteri, vurduğu zərər əsas götürülür.

Bu mənada sığorta risklərini qiymətlərdən asılı olaraq böyük, orta və kiçik risklərə ayırırlar. Burada həmçini daha çox təhlükəli və az təhlükəli riskləri ehtimal səviyyəsinə görə fərqləndirirlər.

**Sığorta hadisəsi** - qanuna və ya sığorta müqaviləsinə görə sığorta ödənişini, sığortalıya və ya üçüncü şəxslərə ödənilməsi üçün əsas olan haldır;

**Sığorta məbləği** - sığorta hadisəsi baş verdikdə sığortalının əmlakına və ya əmlak mənafelərinə dəyən zərərin yerini doldurmaq üçün pul və ya natura şəklində ödənilən vəsaitdir;

**Sığorta haqqı** - sığorta müqaviləsinə və ya bu qanuna uyğun olaraq sığortalının sığortaçıya verməli verməli olduğu pul məbləğidir.

**Sığorta tarifi** - hər bir obyektin qiymətinə uyğun olaraq sığorta faizi dərəcəsidir. Bu tariflər sığorta fondunun formalaşdırılmasına xidmət edir və onlardan gələn gəlir fonda daxil edilir. Bu tariflər manatla ödənilir. Bu həm də sığorta ayırmaları yaxud sığorta ödənişləri hesab edilir.

**Sığorta müqaviləsi** - sığortalı ilə sığortaçı arasında sazişdir. Bu müqaviləyə görə sığortaçı sığorta hadisəsi zamanı sığortalıya sığorta ödənişi verməyi, sığortalı isə müəyyənləşdirilmiş müddətlərdə sığorta haqqını ödəməyi öhdəsinə götürür;

**Ümumi sığorta daxili** - yüksək sığorta risklərinin sığortalanmasında öz ödəmə qabiliyyətinin təmin olunması və sığortalıların əmlak mənafelərinin müdafiəsinə zəmanət verilməsi üçün sığortaçıların öz aralarında bağladıqları saziş əsasında qarşılıqlı sığorta fəaliyyətinin təşkili formasıdır;

**Sığorta şəhadətnaməsi** - sığortalı ilə sığortaçı arasında bağlanan sığorta müqaviləsinin olmasını təsdiq edən və həmin müqavilənin əsas məzmununu əks etdirən sənəddir;

**Sığorta marağı** - bu iki mənalı anlayışdır. Birincisi sığortada iştirakçıları maraqlandıran iqtisadi tələbatı, ikincisi mümkün hallarla əlaqədar olaraq meydana çıxan zərərin qiymətləndirilməsini əks etdirən sığorta məbləğini ifadə edir;

**Sığorta müdafiəsi** - konkret obyektə dəymiş zərərin aradan qaldırılması, yaxud ödənilməsi məqsədilə yaranan münasibətlərdir;

**Sığorta məsuliyyəti** - müqavilədə nəzərdə tutulmuş qəza hallarında sığortaçının zərəri aradan qaldırmaq üçün vəsait, yaxud sığorta məbləğini ödəməsi məsuliyyətidir;

**Sığorta qiyməti** - bu dəyəri olan və sığorta obyekti kimi çıxış edən maddi qiymətləri əhatə edən əmlak sığortası anlayışıdır. Sığorta qiyməti dedikdə, sığorta məqsədilə obyektin dəyərinin müəyyən edilməsi başa düşülür. Bu sığortanın əsas şərtlərindəndir. Belə ki, sığortalanan əmlak əvvəl qiymətləndirilir, sonra sığorta müqaviləsinə daxil edilir. Sığorta şərtlərindən asılı olaraq sığorta qiyməti əmlakın həqiqi qiymətindən aşağı qiymətləndirilə bilər.

**Sığorta müddəti** - hər hansı bir müəyyənləşdirilmiş dövr ərzində sığorta obyektinin sığortalanmasını ifadə edir. Məcburi əmlak sığorta zamanı sığorta müddəti müqavilədə qəti müəyyən olunur. Sığorta müddəti ilə sığorta fəaliyyətini fərqləndirmək lazım gəlir. Sığorta fəaliyyəti ilk sığorta ayırmasının ödənilməsindən sonra sığorta müqaviləsinin qüvvəyə minməsi anından başlayır və sığorta müddətini bitməsilə eyni vaxtda başa çatır. Sığorta fəaliyyəti sığorta müddətindən qısa ola bilər.

**Sığorta sahəsi** - sığortalana bilən obyektlərin maksimum miqdarıdır. Əmlak sığortası üzrə sığorta sahəsi həm əmlak sahiblərinin sayını, həm də həmin yerdə yerləşən sığorta obyektlərinin sayını sayını əhatə edir. Şəxsi sığorta üzrə sığorta sahəsinə sığorta müqaviləsi bağlaya bilən fəhlə və qulluqçuları, həm rayonun, şəhərin, vilayətin, respublikanın ümumi əhalisinin,həm də həmin müəssisə və təşkilatlarda işləyənlərin ümumi sayını daxil etmək olar;

**Sığorta portfeli** - müəyyən ərazidə və yaxud müəssisədə sığorta olunmuş obyektlərin, yaxud fəaliyyət göstərən müqavilələrin faktiki miqdarıdır. Sığorta portfeli adı altında həmin ərazidə müəyyən tarixə həyatın uzunmüddətli sığortalanması müqaviləsi üzrə aylıq sığorta ayırmaları məbləği də aydınlaşır;

**Sığorta yaşı** - sığortalanmaya qəbul olunmuş vətəndaşların müəyyən hədd daxilində yaş qurupudur. Sığorta yaşı kənd təsərrüfatında heyvanların sığortalanması zamanı da müəyyən olunur;

**Sığorta kovernotu** (ingiliscə cover-"təmin etmək" və note - "qeyd" sözlərini birləşməsi) sığorta bokerinin sığorta olunana verdiyi sənədlərin və sığorta müqviləsini olduğunu təsdiq edir.

**Sığorta brokeri və sığorta makleri** – sığorta olunanla sığorta edən arasında vasitəçi şirkətlərə və ya şəxslərə deyilir;

**Sığorta polisi** – sığorta edənin sığorta olunma haqqında sığorta olunana verdiyi şəhadətnamədir;

**Sığorta aktı** – sığorta haqqlarının baş vermə səbəblərini və faktı əks etdirən sənəddir. Əmlak sığortası zamanı bu aktlar zərərin məbləğinin hesablanmasında və sığorta yardımı (ödənişi) alan sığortalanmış obyektin hüququnun müəyyən olunmasında əsas kimi istifadə edilir;

**Sığorta zərəri** - sığorta qiymətləndirilməsi zamanı korlanmış əmlakın tam məhv olmuş və yaxud qiymətsizləşmiş hissəsinin dəyəridir. Sığorta obyektlərinə dəyən zərər məbləğinin tam,yaxud bir hissəsini ödənilməsi sığorta ödənişi (yardımı) adlanır.

Sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün tərəflərini əhatə etməklə əhalinin maddi rifahının və sahibkarlıq riskinin zəmanətçisi kimi çıxış edir, gözlənilməz və fövəladə hadisələr zamanı əmlak mənafelərinin qorunmasına, dövLətin maliyyə sisteminin möhkəmləndirilməsinə təsir göstərir. O, nəinki sığorta hadisələri zamanı büdcəni dəyən zərərlərin ödənilməsindən azad edir, hətta uzunmüddətli investisiyaların mənbəyinə çevrilir.

**Logistik əməliyyatlarda sığorta**

Bütün təsərrüfat fəaliyyətlərində olduğu kimi logistika ilə məşğul subyektlər də bazar iqtisadiyyatının qeyri-müəyyən mühitində irəliləməyə məcburdular. Bu zaman onların tam olaraq ətraf aləm və gələcək barədə təsəvvürləri olması mümkün deyil. Risklə əhatəli fəaliyyət olduğundan, idarəedənlər bu risklərlə bağlı müəyyən tədbirlər görməli olurlar. Bu riskin əsas səbəbi məhsulun istehsalçıdan istehlakçıya çatana qədər keçdiyi mərhələlərin uzun ola bilməsidir. Bəzən mərhələlər arasında bir neçə sərhəd keçmək və ya coğrafi cəhətdən bir-birindən tamam uzaq olan regionlar üzrə daşınma tələb olunur.

Bu zaman logistik şirkətlərin öz fəaliyyətlərini optimallaşdırması üçün sığortadan istifadə olunur. Risklərin məzmunundan asılı olaraq logistik sığortalanmanın bir neçə növləri olur:

- Məsuliyyətlə bağlı risklər və onun sığortası (bax 4.1.1).
- Yüklə bağlı risklər və onun sığortası (bax 3.1.1).
- Nəqliyyatla bağlı risklər və onun sığortası.

Nəqliyyatla bağlı sığortalanmaya aşağıdakılar aiddir:

1. Ölkə daxili daşıyıcının yarana biləcək risklərdən sığortalanması.
2. Ölkə xarici daşıyıcının yarana biləcək risklərdən sığortalanması.
3. Nəqliyyatda olan yükün yarana biləcək risklərdən sığortalanması.
4. Beynəlxalq daşımada yarana biləcək risklərdən sığortalanma.
5. Ekspeditorlarla bağlı yarana biləcək risklərdən sığortalanma.
6. Konteynlərlə bağlı yarana biləcək risklərdən sığortalanma.
7. Dəmir yolu ilə bağlı yarana biləcək risklərdən sığortalanma.
8. Hava nəqliyyatı ilə bağlı yarana biləcək risklərdən sığortalanma.
9. Dəniz və çay (istisna hallarda göl) nəqliyyatı bağlı yarana biləcək risklərdən sığortalanma.

Logistik fəaliyyətlə bağlı sığorta işlərində heç də hər zaman sığortalı olaraq mülkiyyətçi çıxış etmir. Sığorta zamanında sığortacı riski daşıyan şəxsin kim olduğuna dair məlumatlı olmalıdır. Bu adətən ya satıcı, ya alıcı ya da daşıyıcı olur.

Sığortadan tam olaraq logistik şirkətin bütün məsuliyyətinin öz üzərinə götürəcəyini gözləmək olmaz. Amma logistik fəaliyyətlə məşğul şirkət sığorta olunmaqda hər zaman maraqlı olacaqdır. Bu istər beynəlxalq, istərsə də ölkə daxili daşıma ilə məşğul olan şirkət üçün ən məqsədə uyğun addımdır. Belə yolla mümkün risklər tam aradan qaldırılmasada, minimuma endirilmiş olur. Nəticədə həm satıcı, həm alıcı, həm də daşıyıcı iqtisadi cəhətdən daha güvənli mühitində fəaliyyət göstərirlər.

## 2.2. HƏR BİR SIĞORTA NÖVÜNÜN ƏHATƏ DAİRƏSİNİ TƏSVİR EDİR

### SIĞORTANIN NÖVLƏRİ VƏ ONLARIN ƏHATƏ DAİRƏSİ

Sığorta haqqında" AR Qanununa əsasən sığorta iki əsas sahədən: həyat və qeyri-həyat sığortası sahələrindən ibarətdir. Sığortaçılar bu sahələrdən biri və ya hər ikisi üzrə fəaliyyət göstərə bilərlər.

Həyat sığortası - sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa yaxud əlilliyə görə tamamilə və ya qismən itirilməsi halları üçün aparılan sığortadır. Həyat sığortası üzrə müqavilə müddəti bitdikdə və ya sığorta hadisəsi baş verdikdə sığorta məbləği sığorta müqaviləsində müəyyən edilmiş qaydada və şərtlərlə sığortaçıya və ya onun varisinə ödənilir. Həyat sığortası müqavilələri uzun müddətə bağlanılır və bu müddətdə yaranmış inflyasiya sığortalıya təminatın verilməsinə maneçilik yarada bilər. Bu baxımdan sığorta şirkəti öz fəaliyyətini elə qurmalıdır ki, sığorta müqavilələri üzrə qəbul etdiyi öhdəlikləri müqavilə ilə müəyyən olunmuş şərtlər çərçivəsində həyata keçirə bilsin.

Qeyri-həyat sığortası-sığorta hadisəsi baş verdiyi zaman sığortaçıya vurulan zərər ödənilməklə onun məsuliyyəti, əmlakı və əmlak mənafeləri ilə bağlı risklərin sığortasıdır. Həyat və qeyri-həyat sığortasının aparılma qaydası və şərtləri qanunvericiliyə uyğun olaraq sığortaçı və sığortalı arasında bağlanan müqaviləyə əsasən müəyyən olunur.

Sığortanın növləri kimi könüllü və icbari formada həyata keçirilir. Könüllü sığorta-sığortaçı ilə sığortalı arasında bağlanan müqavilə əsasında müəyyən olunur. Könüllü sığortanın aparılması qaydası “Sığorta haqqında” Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunur. Sığortanın şərtləri sığorta bağlanan zaman müəyyən olunur.

İcbari sığorta - vətəndaşların sosial maraqlarının və dövlət maraqlarının təmin edilməsi məqsədilə icbari sığorta qanunları əsasında həyata keçirilir. İcbari sığortanın növləri, həyata keçirilmə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunları əsasında müəyyən olunur.
İcbari sığortaya yuxarıda deyilənlərlə yanaşı bunlar da aiddir:

- Vətəndaşların icbari tibbi sığortası; hava, dəmiryolu, dəniz, daxili su və avtomobil nəqliyyatdan, bədbəxt hadisələrdən icbari şəxsi sığortası; Azərbaycan Respublikası dövlət vergi xidməti əməkdaşlarının icbari dövlət şəxsi sığortası və s.
- Vətəndaşların əmlakının icbari sığortası (ev, bağ evləri, qarajlar, təsərrüfat tikililəri və s.)



Sığorta münasibətlərinin növlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

**Şəxsi sığorta.** Şəxsi sığorta üzrə müqavilədə sığorta obyektlərinin və mümkün sığorta hallarının siyahısı “Sığorta haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmişdir. Qanuna görə şəxsi sığortanın obyektləri sığortalının həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə əlaqədar əmlak mənafeləri ola bilər.

Şəxsi sığorta sığorta işinin ən mühüm fəaliyyət sahələrindən biridir. Şəxsi sığorta könüllü sığorta əsasında həyata keçirilən fəliyyət sahələrindəndir. Şəxsi sığorta şəxslər tərəfindən həyatın sığorta edilməsidir. Həyatın sığortası üzrə müqavilə fiziki şəxslərlə bağlanılır. Burada 3 amil əsas götürülür: sığortalananların yaşı, sığortalananların sağlamlıq səviyyəsi, sığortalananların vətəndaşlığı.

Tərəflərin razılığına uyğun olaraq müqavilələr istənilən sığorta məbləği üzrə bağlana bilər. Belə ki sığorta məbləği çox olduqca sığorta ayırmaları da artır ki, bu da sığortalananların imkanlarının

sığorta məbləğindən artıq olmasını vacib edir. Sığorta məbləğini sığorta müddətinin başa çatmasına yaxın və bədbəxt hadisələrdən sağlamlığının itirilməsi zamanı məhz sığortalanmış şəxsin özü alır. Digər şəxslər bu məbləği yalnız o halda ala bilərlər ki, həmin şəxsin əlində sığortalanmış adamın etibarnaməsi olsun. Bu etibarnamə notarial qaydada rəsmiləşdirilməlidir.

Sığorta müqaviləsinə görə sığortalanmış şəxs öldükdə sığorta məbləği əvvəlcədən təyin olunmuş şəxsə ödənilir. Ölmüş alıcının əvəzləyicisi məbləği şəxsin ölümündən sonra 3 il müddətinə ala bilər. Sığorta müqaviləsi 3, 5, 10, 15, 20 il müddətinə bağlana bilər, ancaq sığorta yaşı 80 yaşdan yuxarı keçməməlidir. Sığortalananların əksəriyyəti sığorta müqaviləsinin 5 illik müddətə bağlanmasına üstünlük verirlər.

Şəxsi sığortanın bir neçə növləri vardır: uşaqların sığortalanması, nigahın sığortalanması, bədbəxt hadisələrdən sığorta, sərnişinlərin sığortası.

Şəxsi sığortadan söhbət gedərkən, qeyd olunması əsas məsələlərdən biri uşaqların sığortalanmasıdır. Bu demək olar ki, dünya ölkələrinin əksəriyyətində tətbiq olunur. Bu sığortalanmaya sağlamlığından asılı olmayaraq doğum günündən 15 yaşına qədər olan bütün uşaqlar qəbul edilirlər. Sığorta müddəti 6 aydan 15 ilə qədər ola bilər. Uşaqların sığorta müqaviləsində istənilən sığorta məbləğində bağlana bilər.

Cəmiyyətin ictimai həyatında ən mühüm sığorta formalarından biri də nigahın sığortalanmasıdır. Nigahın sığortalanmasına uşaqların sığortalanmasının bir variantı kimi də baxmaq olar. Belə ki, sığortalanmışlar nigah yaşına çatana qədər sığortalanırlar və nigaha girən vaxt onlara sığorta məbləği ödənilir. Nigahın sığortalanması üzrə müqavilələr 18 yaşından 72 yaşına qədər olan vətəndaşlarla bağlanıla bilər ki, bu zaman da müqavilənin müddətinin başa çatdığı günə sığortalanmış vətəndaşın yaşı 75-i keçməməlidir. Sığortalanmış şəxsə sığorta məbləği rəsmi nigaha girməsi ilə əlaqədar olaraq sığorta müddəti bitdikdən sonra ödənilir.

Bədbəxt hadisələrdən fərdi sığortanın şərtlərinə görə hər kəs özünü sığorta etdirə bilər. Bu sığortaya 16 yaşından 75 yaşınadək vətəndaşlar qəbul edilə bilər və sığorta müddəti 1 ildən 5 ilədəkdir.

**Sosial sığorta.** Sosial sığorta sosial təminatın tərkib hissəsi olmaqla onun formalarından biridir. Sosial sığorta–dövlətin sosial sahədəki siyasətinin ayrılmaz tərkib hissəsidir.

Sosial sığorta müvafiq sığorta fondlarının yaradılması və istifadəsində həmkarlar ittifaqlarının və digər ictimai təşkilatların fəal rol oynaması vacibdir. Sosial sığortanın ən vacib vəzifəsi əmək ehtiyyatlarının təkrar istehsalı üçün vacib olan şərtlərin yaradılmasıdır. Bütün bunlarla bərabər, sosial sığorta – dövlətin sosial sahədəki siyasətinin ayrılmaz hissəsidir.

Sosial təminat və vətəndaşların maddi təminatı və onlara xidmət göstərilməsi üçün milli gəlirin müəyyən hissəsi he¬¬sabına ictimai istehlak fondlarının yaradılması və istifadəsi prosesində

müəyyən hissəsi hesabına ictimai istehlak fondlarının yaradılması və istifadəsi prosesində yaranan bölgü münasibətləri sistemidir.

**Sosial sığorta sistemi iki hissədən ibarətdir:**

- Birinci hissə müalicəvi tədbirlərin həyata keçirilməsi də daxil olmaqla işçilərin əmək qabiliyyətinin qorunması və bərpasını təmin edir;
- İkinci hissə əmək qabiliyyəti olmayan və əmək qabiliyyətini itirmiş şəxslərin maddi ehtiyaclarını təmin edir.

**Azərbaycan Respublikasında sosial sığortanın prinsipləri aşağıdakılardır:**

- Sosial sığortanın dövlət təminatı;
- Sosial sığortanın ümumiliyi;
- Sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi;
- Sosial sığorta subyektlərinin hüquq bərabərliyi;
- Dövlət sosial sığortasının məcburiliyi;
- Məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması.

**Sosial sığorta hadisəsinə aşağıdakılar aiddir:**

- Pensiya yaşı;
- Əlillik;
- Ailə başçısının itirilməsi;
- Əmək qabiliyyətinin müvəqqəti itirilməsi;
- Uşağın anadan olması və uşağa qulluq və s.

Azərbaycan Respublikasında sosial sığorta dövlətin əlində cəmləşdirilmişdir. Bu məqsədlə əhalinin sosial müdafiəsi fondu yaradılmışdır. Bu fond əsasən müəssisə və təşkilatların əmək haqqı fondundan ayırmalar hesabına yaradılır.

Sosial sığortanın formalarından biri də tibbi sığortadır. Tibbi sığorta müəyyən səbəblər üzündən sağlamlığın itirilməsi hallarında əhalinin maraqlarının sosial müdafiəsi formasıdır. Tibbi sığorta vətəndaşların tibbi xərclərinin kompensasiya edilməsilə əlaqədardır ki, bu da tibbi yardımın alınması formasında həyata keçirilir. Tibbi sığortanın məcburi və könüllü formaları mövcuddur. Məcburi tibbi sığorta sahibkar tərəfindən ödənilir. Həmin fondun vəsaitlərindən bu və ya digər səbəbdən, o cümlədən xəstəlikdən öz sağlamlığını itirməsi ilə əlaqədar olaraq əmək qabiliyyəti

olmayan sığortalanmış fəhlə və qulluqçuların müalicəsinə müəyyən həcmdə xərclərə yönəldilir. Könüllü tibbi sığorta zamanı vəsaitlər əməkçilərin vəsaitləri hesabına ödənilir və çox yüksək səviyyədə tibbi yardımın ödənilməsi təmin edilir. Azərbaycanda tibbi sığortanın bugünki, vəziyyətini elə də qənaətbəxş saymaq olmaz, dövlət isə səhiyyəni lazımi səviyyədə maliyyələşdirmək iqtidarında deyil.

**Əmlak sığortası.** Müasir mərhələdə əmlak sığortası getdikcə daha böyük əhəmiyyət kəsb edir. Qanunvericiliyə əsasən sığorta hüquqi və fiziki şəxslərin əmlakına aid edilir.

Əmlak və əmlak marağı naminə sığorta edilmiş risklər növlərinə görə müxtəlifdir. Əksər hallarda əmlak yanğın, daşqın, zəlzələ, qəza, partlayış və s. kimi hadisələrə məruz qalır. Əmlak sığortası müqaviləsinə görə aşağıdakı əmlak maraqları sığortalana bilər:

1. İtki, müəyyən əmlakın əksik gəlməsi və zədələnməsi riski;
2. Digər şəxslərin həyatı, sağlamlığı və ya əmlakına dəyən zərər nəticəsində yaranan öhdəçiliklər üzrə məsuliyyət riski, qanunvericilik ilə nəzərdə tutulmuş hallarda isə müqavilələr üzrə vətəndaşların məsuliyyət riski;
3. Sahibkarlıq müqavilələrinin öz vəzifələrində qanun pozuntularına yol verildiklərinə görə sahibkarlıq fəaliyyətindən yaranan itgi riski və ya sahibkardan asılı olmayan səbəblərə görə bu fəaliyyətin şərtlərinin dəyişməsi riski, o cümlədən gözlənilən gəlirin alınması riski-sahibkarlıq riski.

Əmlak sığortasını ən geniş yayılmış növləri bunlardır:

Müəssisələrin, təşkilatların, idarələrin, vətəndaşların əmlakının sığortası; yüklərin sığortası; yanğın əleyhinə sığorta; təyyarələrin, dəniz gəmilərinin sığortası; bank sığortası və digər sığorta.

Hüquqi şəxslərin əmlak sığortası təsərrüfat subyektlərinin növlərinə görə ayrılır: sənaye, kənd təsərrüfatı və tikinti müəssisələri. Vətəndaşların əmlakının sığorta olunmasının isə müxtəlif növləri vardır və o sığortanın müstəqil növlərinə aid edilir, onların bir necəsi bunlardır: şəxsi avtomobil nəqliyyatının sığorta olunması; ev və digər əmlakın, yardımçı təsərrüfat predmetlərinin sığorta olunması, ev heyvanlarının sığorta olunması və s.

Yüklərin daşınaması üzrə müqavilələr - fərdi qəza üzrə daşınan məsuliyyətə görə,zədələnmə məsuliyyəti olmadan bağlanılır. Beynəlxalq yük daşımalarında sığorta məcburi xarakter daşıyır.

Təbii hadisələr, insanaların qəsdən və bilməyərəkdən etdikləri ehtiyyatsızlıqdan meydana gələn yanğınlar çox zaman fəlakətə çevrilir. Bu da həm maddi, həm də ictimai mənada böyük ziyana səbəb olur. Bu cür riskləri də yanğın sığortası vasitəsilə aradan qaldırmaq mümkündür. “Yanğının təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının qanununa əsasən yanğına qarşı həm könüllü, həm də icbari sığorta keçirilməsi mümkündür.

Əmlak sığortasının ən geniş yayılmış növlərindən biri avtomobil nəqliyyatı vasitələrinin, hava

hava və dəniz nəqliyyatı vasitələrinin sığortasıdır. Sığortanın bu növü könüllü formada həyata keçirilir. Nəqliyyat vasitələri həm könüllü, həm də məcburi formada sığortalana bilər. Azərbaycan Respublikasının qanununa görə nəqliyyat vasitələri məcburi formada sığortalanmalıdır.

**Məsuliyyət sığortası.** Mülki məsuliyyət sığortası zamanı obyekt kimi üçüncü şəxs qarşısında məsuliyyət çıxış edir. Məsuliyyət sığortasında sığorta obyekti kimi sığorta etdirən şəxsin fəaliyyəti və fəaliyyətsizliyi nəticəsində üçüncü şəxslərə (fiziki və ya hüquqi) dəyən zərərə görə bu şəxslərə kompensasiya verilməsini təmin edən sığorta sahəsidir.

**Kommersiya risklərinin sığortası.** Sığortanın bu növünün mahiyyəti sığorta hesabına sahibkar bağlaşmalarının həyata keçirilməsi riskinin azladılmasından ibarətdir. Burada ən geniş yayılmış sığorta növü bank krediti riskidir. Kredit riskinin obyekti bank ssudası, öhdəlik, investisiya kreditidir (kapital qoyuluşunun kreditləşdirilməsi). Kredit geri qaytarılmadıqda kredit təşkilatı kreditin məbləğini tam və ya qismən kompensasiya edən sığorta ödənişi alır.

Sığorta obyekti tərəflərinin birinin öz öhdəliyini pozması nəticəsində mümkün zərər hallarında kommersiya əməliyyatları çıxış edə bilər. Bu halda zərərə gözlənilən gəlirlərin əldə edilməməsi kommersiya əməliyyatlarının predmeti olmaqla, əmlakın zədələnməsi və məhvi aiddir.

Kommersiya riski ilə idxal-ixrac yüklərinin və habelə daşıyıcı vasitələrinin, xaricdə təşkil edilmiş beynəlxalq ticarət-sənaye sərgilərinin sığortasını özünə daxil edən xarici iqtisadi risklərlə əlaqədardır.

## 2.3. DAŞINACAQ YÜKLƏRİN SIĞORTA HAQQINI MÜƏYYƏNLƏŞDİRİR

DAŞINACAQ YÜKLƏRİN SIĞORTA HAQQI

Müasir dövrdə ən müxtəlif biznes sahələrində yüklərin daşınması xüsusi yer tutur. Həmin daşımalar istər-istəməz maddi itki və zərərlərlə müşayiət olunur. Axı daşınma zamanı müxtəlif səbəblərin üzündən mal qismən və ya tamamilə məhv və ya xarab ola bilər. Məhz buna görə yükün hər hansı bir ünvana, istər ölkə daxilində, istərsə də xaricə çatdırılması prosesində onun sığortalanması çox böyük əhəmiyyət kəsb edir.

Sığorta müqaviləsində istifadə edilən yük termini, həyata keçiriləcək daşımanın xarakterinə uyğun olaraq qablaşdırılmış kommersiya mallarını əhatə edir. Bununla birlikdə sığortaçı qəbul etdiyi hallarda istifadə edilmiş əşyalar, qüsurlu və ya geri qaytarılan mallar, sığortalının razılığı ilə gəminin göyərtəsində daşınan yüklər, eləcədə örtüksüz yük maşınında və ya açıq vaqonda daşınan yüklər, şəxsi əşyalar və ya əl yükləri, canlı heyvan və poçt göndərişləri də, bu ümumi şərtlərə əsasən yük sayılır.

Bu növ sığorta ilə yükün, sığorta müqaviləsində göstərilən vaxt və ya daşınma müddəti ərzində

ərzində müqavilədə göstərilən dəniz, avtomobil, hava nəqliyyat vasitələri və habelə dəmir yolu vasitəsilə daşınması zamanı, hansısa bir anbarda müvəqqəti olaraq saxlandığı zaman məruz qaldığı sığorta hadisələri nəticəsində dəyən ziyan və zərərlərə əlavə edilmiş xüsusi şərtlər daxilində təminat verilir.

Sığorta təminatı, baş vermiş hadisə nəticəsində yükə dəymiş ziyan və zərərləri və yaxud onlarla əlaqədar xərcləri əhatə edir. Ziyan və zərərin və yaxud xərclərin miqdarı və mahiyyəti, təminata daxil edilən hadisələr və istisnalar sığorta şəhadətnaməsinə əlavə edilən xüsusi şərtlərə (klozlara) əsasən müəyyən edilir.

Sığorta şəhadətnaməsinin şərtləri daxilində aşağıdakı hadisələr nəticəsində dəyən ziyan və zərərlər sığorta təminatına daxil edilir:

- Fırtına, gəminin batması, sahilə toxunması, quru və ya qum üzərinə çıxması kimi hallarla əlaqədar sığortalanmış əmtəələrin, qismən və ya tamamilə zərər çəkməsi;
- Yanğın, partlayış, ildırım, cərəyan, fırtına, burulğan və digər təbii fəlakətlər nəticəsində nəqliyyat vasitələrinin qəzaya uğraması ilə əlaqədar sığortalanmış əmtəələrin qismən və ya tamamilə zərər çəkməsi;
- Gəminin oturması, nəqliyyat vasitələrinin toqquşması, hərəkətsiz və ya səyyar bir cismə (buz da daxil olmaqla) toxunması nəticəsində yükün məhv olması, itirilməsi, zərər çəkməsi və sair formada itkisi;
- Yükləmə (yenidən yükləmə) və boşaltma zamanı bir və ya bir neçə bağlamanın düşməsi;
- Nəqliyyat vasitələrinin qəzaya uğraması və qəza təhlükələri ilə əlaqədar olan bütün növ ziyan və zərər.





Sığorta haqqı təklif şəklində təqdim olunan məlumat əsasında müəyyənləşdirilir. Sığorta haqqı sığorta məbləğinin müəyyən bir qismini təşkil edir. Bu məbləğ daşınan yükün mahiyyətindən, daşınma məntəqlərindən, nəqliyyat növündən və.s səbəblərdən bir-birindən fərqlənir.

### 2.4. MƏSULİYYƏTİN SIĞORTALANMASINI VURĞULAYIR

MƏSULİYYƏTİN SIĞORTALANMASI VƏ ONUN NÖVLƏRİ

İstənilən təşkilatın fəaliyyəti üçüncü şəxslərin sağlamlığına, həyatna və əmlakına zərər vurmaq riski ilə bağlıdır. Belə ziyan vurulduğu təqdirdə təşkilatın üzərinə həmin zərərin tam həcmdə ödənilməsi vəzifəsi düşür ki, bu da ciddi maliyyə xərclərinə gətirib çıxarır. Məhz belə hadisələrin baş verdiyi zaman məsuliyyətin sığortası üçüncü şəxslərə dəymiş zərərlə bağlı təşkilatın əmlak maraqlarının qorunmasının ən etibarlı və effektiv metodlarından biridir.

Müxtəlif sığorta şirkətləri fəaliyyət növlərinin həyata keçirilməsi zamanı məsuliyyətin sığortası üzrə sığorta xidmətinin geniş spektrini aşağıdakı kimi təqdim edir:



Mülki-hüquqi məsuliyyətin sığortası. Sığortanın bu növü üçüncü şəxslərin sağlamlığına, həyatna və/və ya əmlakına zərər vurmağa görə sığortalının mülki-hüquqi məsuliyyətinə uyğun olaraq sığorta təminatı verir. Sığorta təminatı olaraq bunlar çıxış edir:

- Üçüncü şəxslərin sağlamlığına, həyatına və/və ya əmlakına zərər vurmaqla bağlı sığortalının xərclərinin ödənişi,
- Sığortalının bütün məhkəmə və digər xərclərinin ödənişi.

İşəgötürənin məsuliyyətinin sığortası. Bu proqram özünün cazibədar işəgötürən imici barədə qayğılanan, işçilərinin həqiqətən qeydinə qalan şirkətlər üçün nəzərdə tutulub və şirkətin əməkdaşının sağlamlığına vurulan zərərə görə kompensasiya ödənişi üzrə xərclərə ciddi şəkildə qənaət etməyə imkan verir. Bu sığorta növü Azərbaycan Respublikasının əmək və mülki qanunvericiliyinə uyğun olaraq işəgötürənin öz işçisinin sağlamlığına və həyatına dəyən zərərin ödənilməsi üzrə məsuliyyətini tam qarşılayır.

Bu növ məsuliyyət aşağıdakı şəxslər qarşısında sığortalana bilər:

- Əmək müqaviləsinə əsasən işini icra edən personal;
- Sazişə əsasən işini icra edən fərdi şəxslər;
- Təcrübə keçən tələbələr.

**Daşıyıcıların məsuliyyətinin sığortası.** Bu sığorta növünə əsasən sığorta obyekti yük daşıyarkən və ya nəqliyyat-ekspedisiya xidmətləri göstərərkən hüquqi və fiziki şəxslərin sağlamlığına, həyatına və ya əmlakına vurulan zərəri ödəmək mükəlləfiyyəti ilə bağlı sığortalının əmlak maraqlarıdır. Bundan başqa, bu sığorta növü üzrə sığortalının sığorta hadisəsinin təfərrüatlarının araşdırılması, yükün xilas olunması üçün tələb olunan işlərin aparılması zərurəti ilə bağlı əlavə xərclərin çəkilməsi, sığortalının dövlət hakimiyyəti, məhkəmə və arbitraj orqanlarında maraqlarının qorunması ilə bağlı əmlak maraqları da əlavə olaraq sığortalana bilər.

**Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası.** Hüquqi şəxslər, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər faktiki sahib olduqları, həmçinin icarəyə götürdükləri və ya etibarnamə əsasında idarə etdikləri, yaxud digər qanuni əsaslarla sahib olduqları daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətini icbari qaydada sığortalamalıdırlar.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası müvafiq əmlakın istismarı, o cümlədən həmin əmlakın ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin həyata keçirilməsi zamanı üçüncü şəxslərin sağlamlığına və əmlakına dəymiş zərərin əvəzini ödənilməsi məqsədilə həyata keçirilir.

Daşınmaz əmlak dedikdə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən öz fəaliyyətlərini həyata keçirmək məqsədilə istismar edilən binalar, tikililər, qurğular, sahələr başa düşülür.

Daşınmaz əmlakın istismar edilməsi, o cümlədən onun ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılması nəticəsində aşağıdakı hallarda zərərçəkən üçüncü şəxslərin sağlamlığına və (və ya) əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə mülki məsuliyyətin yaranması faktı sığorta hadisəsi hesab olunur:

- Elektrik və ya qaz cihazlarından istifadə nəticəsində yaranan yanğın, yaxud belə yanğının qarşısının alınması üçün görülən tədbirlərin nəticələri;
- Qaz partlayışı;
- Elektrik naqillərində baş verən qısa qapanma;
- Su, istilik və kanalizasiya xətlərində baş verən qəza nəticəsində subasma;
- Hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri.

### 2.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Maliyyənin tərkib hissəsi olan sığortanın əhəmiyyətini qeyd edin.
- Sığortanın mühüm anlayışlarının təhlilini aparın.
- Logistik sığorta risklərinin növlərini təsnif edin.
- Sığortanın növləri üzrə təqdimat hazırlayın.
- Əmlak sığortasına uyğun maraqları təsnifləşdirin.
- Logistik xidmətlərdə daşınacaq yüklərin sığorta haqları barədə esse yazın.
- Sinif üzrə qruplara bölünərək məsuliyyətin sığortasının növlərini təhlil edin.

### 2.6. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

- Sığortanın obyekti nədir?
- Sığortalı və sığortaçı kimdir?
- Nəqliyyatla bağlı sığortalanmaya nələr daxildir?
- Sığortanın hansı növləri var?
- Sosial sığortadan nə zaman istifadə olunur?
- Hansı hadisələr nəticəsində dəyən ziyan və zərərlər sığorta təminatına daxil edilir?
- Məsuliyyətin sığortalanmasının hansı növləri var?

### 3.1. İSTİFADƏ OLUNACAQ VERGİLƏRİN MƏZMUNU BARƏDƏ MƏRUZƏ EDİR

VERGİ ANLAYIŞI

Vergi maliyyə elminin əsas anlayışlarından biridir. Ona eyni zamanda həm iqtisadi, həm təsərrüfat və həm də siyasi kateqoriya kimi baxmaq lazımdır. İqtisadi və siyasi elmlərin inkişafı vergilərin mahiyyətini izah etmək üçün yeni imkanlar açır.

Qeyd edildiyi kimi vergi pul vəsaitlərinin büdcəyə toplanmasının ilk forması deyildir. Tarixə nəzər salsaq görərik ki, büdcəyə daxilolmalar müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışlar. Məsələn, qədim dövrlərdə məğlub edilən xalqdan yığılan vəsaitlər bac-xərac adlanırdı. Almaniyada vergilərə dövlət başçısının verginin ödənilməsi ilə bağlı xahişi ilə əlaqədar olaraq bede (beten - xahiş deməkdir) deyirdilər.

Vergitutma nəzəriyyəsi inkişaf edib təkmilləşdikcə “vergi” termininin mahiyyətinə baxışların da təkamülü baş verirdi. Bu zaman alimlər və ictimai xadimlər vergiləri yalnız iqtisadi nöqteyi-

nəzərdən şərh etməyə cəhd edirdilər.

Vergitutma təcrübəsində verginin hüquqi cəhətdən müəyyən edilməsi probleminin həllinə iki əsas yanaşma mövcuddur: geniş mənada yanaşma və dar mənada yanaşma.

Geniş mənada yanaşmada ictimai xərclərin maliyyələşdirilməsi üçün vəsaitlərin hər cür tutulması vergi anlayışına aid edilir. Bu cür yanaşmada vergi anlayışı hər cür ayırmaları və yığımları əhatə edir.




Dar mənada yanaşma isə vergilərə müəyyən tələblərə cavab verən ödənişlərin bir növü kimi baxmağa imkan verir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergiyə aşağıdakı kimi tərif verilmişdir: Vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi və əvəzsiz ödənişdir.

Dövlət gəlirlərinin səfərbər edilməsi üsulundan asılı olaraq məcburi ödənişlər vergi və qeyri-vergi ödənişlərinə ayrılır. Qeyri-vergi ödənişləri dövlətin vergi sisteminə daxil olmayan, vergi qanunvericiliyi ilə deyil, digər qanunvericilik aktları ilə təyin olunan məcburi ödənişlərdir. Qeyri-vergi ödənişlərinə yığım, rüsum və digər ödənişlər daxildir. Vergi, yığım, rüsum və digər ödənişləri bir-birindən fərqləndirmək lazımdır.

İqtisadi nöqteyi-nəzərdən vergiləri, yığım, rüsum və digər ödənişlərdən fərqləndirmək olduqca mürəkkəbdir. Həqiqətən də vergi və qeyri-vergi ödənişləri üçün ümumi cəhət onların qanunvericiliklə müəyyən edilmiş qaydada tutulması, məcburi xarakteri, büdcə və büdcədənkənar fondlarla əlaqəli olmasıdır. Lakin nəzərə almaq lazımdır ki, vergilərə yalnız iqtisadi deyil, həm də hüquqi məna kəsb edən kateqoriya kimi baxmaq lazımdır. Vergi münasibətləri, o cümlədən vergilərin tutulması, vergi qanunvericiliyi normaları ilə nizamlanır. Qeyri-vergi ödənişləri isə qanunvericiliyin digər sahələrinin, məsələn, sosial təminat, pensiya hüququ və s. normaları ilə nizamlanır. Deməli, məcburi ödəniş o zaman vergi ödənişi statusu alır ki, o bilavasitə vergi sisteminə daxil edilmiş olsun və ona uyğun vergi qanunu ilə xüsusi qaydada vergi statusu verilmiş olsun.

Qeyd etmək lazımdır ki, vergi yığım, rüsum və digər ödəniş anlayışları arasında nəzəri xarakterli fərqlər mövcuddur. Vergilər əvəzi ödənilmədən həyata keçirilən ödənişlərdir. Yığım və rüsumlar isə dövlət və yerli orqanlar tərəfindən qanunla müəyyən edilmiş xidmətlərin göstərilməsi və ya müəyyən hüquqların verilməsi üçün tutulur.

Onların tutulmasında əsas məqsəd dövlət orqanlarının bu və ya digər funksiyaları yerinə yetirərkən çəkdikləri xərclərin ödənilməsidir.

Yığım hər hansı bir fəaliyyətin həyata keçrilməsi müqabilində tutulan vəsaitdir.

Yığımlara misal olaraq bazarlarda, yarmarkalarda satış fəaliyyətini həyata keçirən fiziki şəxslərdən alınan vəsaitləri göstərmək olar. Onlar müəyyən məbləği ödəməklə satış fəaliyyətini həyata keçirmək hüququnu əldə edirlər.

Rüsumlar vətəndaş və ya təşkilatlardan dövlət orqanları ilə hər hansı bir fəaliyyətin həyata keçirilməsi müqabilində tutulan vəsaitlərdir.

Rüsumlara misal olaraq gömrük rüsumlarını, notariat əməliyyatlarının həyata keçirlməsinə görə ödənilən rüsumları göstərmək olar.

Digər ödənişlər istifadə olunmuş təbii ehtiyatların bərpası üçün alınan məcburi ödənişlərdir.

Çox geniş yayılmış maliyyə sanksiyalarını, faizləri və inzibati cərimələri də vergilərdən fərqləndirmək lazımdır. Onlar arasındakı əsas fərq tutulma səbəbləridir. Vergi ödənişlərinin əsas səbəbi milli gəlirin yenidən bölüşdürülməsi, cərimə ödənilməsinin səbəbi isə bu və ya digər qanun pozuntusudur.

Vergilərin özünə məxsus bir sıra əlamətləri vardır:

Verginin **birinci əlaməti** onun subyektin gəlirinin bir hissəsini dövlətin xeyrinə özgəninkiləşdirməsidir.

Verginin **ikinci əlaməti** onun təyin edilməsi və tətbiq olunmasının qanuniliyidir. Başqa sözlə, vergilər qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada müəyyən edilir və tutulur.

Vergilərin **üçüncü əlaməti** onların vacibliyidir. Qanunvericiliyə uyğun olaraq hər bir vergi ödəyicisi müəyyən şərtlər daxilində vergini ödəməyə borcludur. Əksər inkişaf etmiş ölkələrin konstitusiyalarında vətəndaşların vergi öhdəlikləri konstitusiya xarakteri daşıyır.

Vergilərin **dördüncü əlaməti** onların məcburi xarakter daşımasıdır. Bu dövlət tərəfindən vergi, hüquq-mühafizə və məhkəmə orqanlarının timsalında təmin olunur. Sanksiya və məcburetmə vasitələri sistemi vergi ödəyicilərinə vergi ödəmək öhdəliklərini yerinə yetirməkdə müəyyən təsir göstərir.

Vergilərin **beşinci əlaməti** onların pul formasında ödənilməsidir. Azərbaycan Respublikasının vergi qanunvericiliyində vergilərin əmlak və ya başqa şəkildə ödənilməsi nəzərdə tutulmamışdır. Bir sıra ölkələrdə hələ də natural vergilər mövcuddur.

Vergilərin **altıncı əlaməti** onların əvəzsiz xarakter daşımasıdır. Vergi şəklində dövlət büdcəsinə keçirdiyi pulun müqabilində vergi ödəyicisi bilavasitə heç nə almır, yəni verginin ödənilməsi öhdəliyi birtərəfli xarakter daşıyır.

Vergilərin **yeddinci əlaməti** onların abstrakt ödəniş olmasıdır. Vergilər büdcəyə keçirilərkən məqsədli təyinat daşımırlar, yəni onların konkret olaraq hansı dövlət xərclərinin ödənilməsi üçün köçürüldüyü göstərilmir. Dövlət büdcəsinə daxil olan vəsaitlər dövlətin bütün ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulur.

**İstifadə olunacaq vergilərin məzmunu:**

Logistik və ümumiyyətlə daşımalarla məşğul müəssisələr digər sahə müəssisələri kimi mütləq qaydada dövlət vergi orqanlarında vergi ödəyicisi kimi qeydiyyatdan keçməlidirlər. Bununlada öz üzərilərinə ölkə üzrə müəyyənləşmiş ümumi vergilərin ödənməsi öhdəliklərini götürürlər. Bunlara misal olaraq mənfəət vergisi, əmək haqqından olan vergilər və.s göstərmək olar.

Digər sahələrdə olduğu kimi logistik müəssisələrin də özünə məxsus xüsusi cəhətləri olur ki, bu cəhətlərdə müxtəlif iqtisadi ünsürlərə təsir etmiş olur. Bunlardan biri də vergilərdir ki, logistikada istifadə olunan spesifik vergilər kimi aşağıdakıları göstərmək olar:

- Nəqliyyatla bağlı vergilər-sadələşmiş vergi
- Yol vergisi
- Aksiz vergisi
- Əlavə dəyər vergisi

**1. Nəqliyyatla bağlı vergilər-sadələşmiş vergi.** Mülkiyyətində və ya istifadəsində olan nəqliyyat vasitələri ilə(əsasən avtonəqliyyat) (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş vergisinin ödəyiciləridir. Nəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergisi daşınma ərazisindən, daşınan nəqliyyatdan və daşınandan asılı olaraq müxtəlif dərəcələr üzrə müəyyən olunur. Vergi ödəyiciləri tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

**2. Yol vergisi.** Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən xarici dövlətlərin nəqliyyat vasitələrinin sahiblərindən Azərbaycan Respublikasının yollarından istifadəyə görə yol vergisinin hesablanıb alınması Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq tənzimlənir və toplanır.

Xarici dövlətlərin Azərbaycan Respublikasının ərazisinə daxil olan nəqliyyat vasitələrindən yol vergiləri nəqliyyat vasitələrinin növündən, oturacaq yerlərinin sayından, Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən, yük maşınları üçün oxların sayından, yüklə birlikdə ümumi çəkisindən, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən və yüklərin

təhlükəlilik dərəcəsindən və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq müxtəlif dərəcələrlə hesablanır.

Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olmuş xarici dövlətlərin nəqliyyat vasitələri müəyyən edilmiş müddət ərzində həmin ərazini tərk etmədikdə əlavə qaldıqları günlər üçün verginin məbləği həmin nəqliyyat vasitələri Azərbaycan Respublikasından çıxan zaman alınır.

**3. Aksiz vergisi.** Aksizli malların satış qiymətinə daxil edilən dolayı (istehlak) vergi növüdür. Azərbaycan Respublikasında aksizli mallara aşağıdakılar aid edilir:

- İçməli spirt, pivə və spirtli içkilərin bütün növləri;
- Tütün məmulatları;
- Neft məhsulları;
- Minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);
- İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;
- İdxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;
- idxal olunan xəz-dəri məmulatları.

Vergi ödəyiciləri olaraq:

- Azərbaycan Respublikasında aksizli malların istehsalçıları;
- Azərbaycan Respublikasına aksizli malların idxalçıları;
- Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özüvə ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri;
- Aksizli mallar sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir.

**4. Əlavə dəyər vergisi.** 1992-ci ildən Azərbaycan Respublikasında tətbiq olunan əlavə dəyər vergisi (ƏDV) dolayı vergidir. ƏDV vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. Respublika ərazisində istehsal olunan kənd təsərrüfatı



məhsullarının pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləğidir.
Vergi ödəyiciləri kimi rezident və qeyri-rezident hüquqi və fiziki şəxslər ƏDV-nin ödəyicisi sayılırlar:

- ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxslər
- Azərbaycan Respublikasına ƏDVtutulan malları idxal edən şəxslər, bu cür idxal malları üzrə
- ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və vergiyə cəlb edilməli olan qeyri-rezident şəxslər, həmin işlər və ya xidmətlər üzrə
- Aksizli malların istehsalçıları və sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər.

### 3.2. MÜXTƏLİF VERGİ NÖVLƏRİNİ SADALAYIR

VERGİLƏRİN NÖVLƏRİ

Vergilərin müxtəlifliyi onların müəyyən əsaslarla növlərə bölünməsi zərurətini yaradır. Bu və ya digər verginin hər hansı bir növə aid edilməsi həmin verginin mahiyyətini və məzmununu daha dəqiq müəyyənləşdirməyə imkan verir.




Vergilərin təsnifatı sayının çoxluğuna və hər birinin özünəməxsus xüsusiyyətlərə malik olmasına baxmayaraq, onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə imkan verir. Ayrı-ayrı vergilərin xüsusiyyətləri onların tutulması və təyin edilməsinin xüsusi şərtləri olmasını tələb edir. Vergilərin təsnifatının, yəni bu və ya digər əlamətlərə görə onların qruplaşdırılmasının nəzəri və praktiki əhəmiyyəti də elə bununla izah olunur.

Müasir vergitutma nəzəriyyəsində vergilər əsasən aşağıdakı xüsusiyyətlərinə görə növlərə ayrılırlar:

- Tutulma üsuluna görə;
- Subyektinə görə;
- Ödənildiyi büdcənin səviyyəsinə görə;
- Məqsədli təyinatına görə;
- İdarəetmə səviyyəsinə görə;
- İqtisadi mahiyyətinə görə.

Tutulma üsuluna görə vergiləri iki əsas qrupa ayırmaq olar: birbaşa vergilər və dolayı vergilər.

Birbaşa vergilər dedikdə, maddi sərvətlərin toplanması prosesində vergi ödəyicilərinin gəlir və ya əmlakından bilavasitə tutulan vergilər başa düşülür. Buna görə də bu vergilərin dəqiq məbləği məlumdur. Birbaşa vergilərə torpaq vergisi, fiziki şəxslərdən tutulan gəlir vergisi, hüquqi şəxslərdən tutulan mənfəət vergisi və s. daxildir.

Birbaşa vergiləri də öz növbəsində aşağıdakı iki qrupa ayırmaq olar:

- Birbaşa real vergilər;
- Birbaşa şəxsi vergilər.

Birbaşa real vergilər vergi ödəyicilərinin maliyyə vəziyyətindən asılı olmayaraq əmlakın, məhsulların və ya fəaliyyətin ayrı-ayrı növlərinə görə ödənilir. Bu zaman vergi ödəyicisinin ödəniş qabiliyyətli olub-olmaması nəzərə alınmır. Birbaşa real vergilərə misal olaraq torpaq vergisini, əmlak vergisini və s. göstərmək olar.

Birbaşa şəxsi vergilər isə həqiqi əldə edilmiş gəlirdən tutulur və vergi ödəyicisinin faktiki ödəniş qabiyliyyətliliyini əks etdirir. Birbaşa şəxsi vergilərə misal olaraq fiziki şəxslərin gəlir vergisini, hüquqi şəxslərin mənfəət vergisini və s. göstərmək olar.

Dolayı vergilər əmtəə və ya xidmətin qiymətindən tutulan vergilərdir. Onlar əmtəə və ya xidmətin qiymətinə dövlət tərəfindən edilən özünəməxsus əlavədir. Dolayı vergilərə misal olaraq əlavə dəyər vergisini, aksizləri və s. göstərmək olar.

Subyektinə görə vergiləri aşağıdakı kimi üç qrupa ayırımaq olar:

- Fiziki şəxslərdən tutulan vergilər;
- Müəssisə və təşkilatlardan tutulan vergilər;
- Eyni zamanda həm hüquqi, həm də fiziki şəxslərdən tutulan vergilər (qarışıq vergilər).

Fiziki şəxslərdən tutulan vergilərə misal olaraq gəlir vergisi, fiziki şəxslərin əmlak vergisi, vərəsəlik və ya bağışlanma yolu ilə keçən əmlakdan vergi və s. göstərmək olar.

Müəssisə və təşkilatlardan tutulan vergilərə misal olaraq hüquqi şəxslərin mənfəət vergisini, hüquqi şəxslərin əmlak vergisini və s. göstərmək olar.

Qarışıq vergilər elə vergilərdir ki, onların ödəyiciləri həm hüquqi, həm də fiziki şəxslər ola bilərlər. Qarışıq vergilərə misal olaraq əlavə dəyər vergisini, mədən vergisini və s. göstərmək olar.

Ödənildiyi büdcənin səviyyəsinə görə vergilər aşağıdakı kimi iki qrupa ayrılır:

- Təsbit olunmuş vergilər;
- Tənzimedici vergilər.

Təsbit olunmuş vergilər bütövlükdə konkret büdcə və ya büdcədən kənar fondlara köçürülür. Tənzimedici vergilər isə qəbul edilmiş büdcə qanunvericiliyinə əsasən müəyyən nisbətdə müxtəlif səviyyəli büdcələrə köçürülür.

Vergitutma obyektinin iqtisadi mahiyyətinə görə vergiləri aşağıdakı növlərə ayrımaq olar:

- Gəlir üzərinə qoyulan vergilər;
- Sərvət üzərinə qoyulan vergilər;
- İstehlak üzərinə qoyulan vergilər.

İdarəetmə səviyyəsinə görə vergilərin təsnifatı konkret olaraq baxılan ölkənin dövlət quruluşundan asılıdır. Bir qayda olaraq federativ quruluşlu dövlətlərdə vergilər üç səviyyəli, unitar dövlətlərdə isə iki səviyyəli olurlar. Üç səviyyəli olan halda idarəetmə səviyyəsinə görə vergilər aşağıdakı kimi təsnifləşdirilir:

- Ümumdövlət vergiləri;
- Ərazi (federasiya və ya konfedrasiya subyektlərinin) vergiləri;
- Yerli vergilər.

Unitar dövlətlərdə isə bir qayda olaraq idarəetmə səviyyəsinə görə vergilər aşağıdakı kimi təsnifləşdirilir:

- Ümumdövlət vergiləri;
- Yerli vergilər.

Ümumdövlət vergilərinin elementləri ölkə qanunvericiliyi ilə müəyyən edilir və ölkənin bütün ərazisində eynidir.

Ərazi vergilərinin elementləri ölkə qanunvericiliyinə uyğun olaraq onun subyektlərinin qanunvericilik orqanları tərəfindən müəyyən edilir.

Yerli vergilər ölkə qanunvericiliyinə uyğun olaraq yerli hakimiyyət orqanları tərəfindən daxil edilirlər və həmişə yerli büdcəyə daxil olurlar.

Məqsədli istiqamətinə görə vergilərin aşağıdakı növləri fərqləndirilir:

- Mücərrəd vergilər;
- Məqsədli vergilər.

Mücərrəd vergilər dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasına xidmət edirlər və heç bir məqsədli təyinat daşımırlar.

Məqsədli vergilər dövlət xərclərinin konkret istiqamətlərinin maliyyələşdirilməsi üçün daxil edilirlər. Adətən məqsədli ödənişlər üçün xüsusi büdcədənkənar fondlar yaradılır.

### 3.3. MƏHSULUN DƏYƏRİNDƏ VERGİLƏRİN PAYINI DÜZGÜN QİYMƏTLƏNDİRİR

MƏNFƏƏTDƏ VƏ MƏHSULUN DƏYƏRİNDƏ VERGİLƏRİN PAYI

Hesablanan hər bir vergi növü müəssisənin gəlirinin bir hissəsini onun əlindən alır. Hər bir müəssisə özünün xalis gəlirlərini artırmağa maraqlıdır və onun rəhbərliyi vergilərin təsirini azaltmaq məqsədi ilə mümkün imkanlar daxilində müəssisənin fəaliyyətində dəyişikliklər etməyə çalışır.

Müəssisənin fəaliyyətinin əsas məqsədi mənfəət əldə etmək olduğundan əsas məsələ vergilərin mənfəətin kəmiyyətinə və məhsula bilavasitə təsirinin qiymətləndirilməsidir.

Vergilərin mənfəətə və bununlada məhsula təsirinin qiymətləndirilməsi üçün onları aşağıdakı kimi qruplaşdıraq:

- Statik vergilər;
- Dinamik vergilər;
- Əmək haqqına hesablanan vergilər.

Statik vergilər müəssisənin mənfəət yaratmaq qabiliyyətinə malik olan əmlakına və ya kapitalına hesablanan vergilərdir. Statik vergilərə misal olaraq əmlak vergisini, torpaq vergisini, differensial rentanı göstərmək olar.

Statik vergilərdən dövlət xəzinəsinə maksimum mümkün məbləğdə pul daxilolmaları tələb etmək olmaz. Bunun üçün başqa vergilər mövcuddur.

İqtisadi dinamik vergilər - müəssisənin maliyyə axınlarına hesabalanan vergilərdir. Müxtəlif tipli vergi sistemlərində onlar büdcəyə vergi daxilolmalarının daha böyük hissəsini təşkil edir. Dinamik vergilərin əhəmiyyəti digər vergilərdən fərqli olaraq dinamikaya, yəni müəssisənin iqtisadi fəaliyyətinə güclü təsiri ilə müəyyən edilir. İqtisadiyyatın ümumi inkişafı baxımından müəssisənin hansı maliyyə axınlarının vergiyə cəlb olunmasının səmərəli olduğunu müəyyənləşdirək.

Əmək haqqına hesablanmış vergilər dedikdə Dövlət Sosial Müdafiə Fonduna əmək haqqı fondundan ayırmalar başa düşülür. Bu verginin məbləği yalnız işçilərin əmək haqqının kəmiyyətindən asılı olduğu üçün fiziki şəxslərin gəlir vergisinə oxşardır. Bu ayırmaların müəyyən hissəsi əməkdaşlar tərəfindən, müəyyən hissəsi isə müəssisə tərəfindən ödənilir. Müxtəlif ölkələrdə bu nisbət müxtəlifdir.

Bütün məsrəflər və yuxarıda nəzərdən keçirilən vergilər ödənildikdən sonra müəssisənin mənfəəti vergiyə cəlb olunur. İnvestisiya fəallığının yüksəldilməsi üçün əksər ölkələr mənfəətin investisiyaya yönədilən hissəsini vergidən azad edirlər.

Ümumiyyətlə götürdükdə mənfəət vergisi sahibkarlıq fəaliyyətinin əsas məqsədi olan mənfəətin məbləğini bilavasitə azaldır. Ona görə də mənfəət vergisinin elə dərəcəsi müəyyən edilməlidir ki, o sahibkarlığın cəlbediciliyini azaltmasın, müəssisənin iqtisadiyyatını əzməsin.

Beləliklə, yuxarıda göstərilən bütün vergilər birbaşa olaraq ya müəssisənin gəlirlərinə, ya da mənfəətinə təsir edir. Bu təsir əlbəttəki, özünü məhsul vahidinin üzərinə yükləyərək, onun qiymətində artıma səbəb olur. Buda vergilərin istehlakçılar tərəfindən ödənilməsi kimi başa düşülür.

### 3.4. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Vergilərin əhəmiyyətini araşdırın.
- Vergitutma ilə bağlı yanaşmaları müzakirə edin.
- Vergi və qeyri-vergi ödənişləri barədə diskussiya təşkil edin.
- Logistikada istifadə olunan vergilər üzrə təqdimat hazırlayın.
- Vergilərin növlərini sadalayın.
- Məhsulun dəyərinə və mənfəətə təsir edən vergilər haqqında esse yazın.

### 3.5. QİYMƏTLƏNDİRMƏ



Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

- Vergi nədir?
- AR Vergi Məcəlləsində vergiyə necə tərif verilir?
- Vergilərin hansı əlamətləri var?
- Aksizli mallar hansılardır?
- Vergilərin təsnifatı necə aparılır?
- Əmək haqqında hansı vergilər hesablanır?

### 4.1. LOGİSTİKADA VƏ TƏDARÜK ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİNDƏ İNFORMASİYA AXININ ƏHƏMİYYƏTİNİ VURĞULAYIR

#### TƏDARÜK ZƏNCİRİNDƏ İNFORMASİYA AXINI

İnformasiya latın dilindəki “İnformatio” sözündən olub, məlumat, ifadə, izah deməkdir. Təcrübədə, əsasən, “İnformasiya” əvəzinə “Verilənlər” və ya “Bilik” sözlərindən istifadə olunur. İnformasiya logistikanın idarəetmə və optimallaşdırılmasının əsasını təşkil edir.

İnformasiya anlayışı logistikada çoxşaxəlidir: Buraya informasiya və telekommunikasiya texnologiyaları və sistemləri, qlobal kompüter şəbəkələri, korporativ və inteqrallaşdırılmış və lokal logistik sistemlər, elektron biznes, elektron sənədləşmənin idarə edilməsi və s. aiddir.




Logistikada informasiya axınlarının idarə edilməsində ən vacib məqsədlərdən biri - logistiklərə informasiya resursların idarə edilməsində köməyin göstərilməsidir. Bunun nəticəsi olaraq logistlər logistik proseslərin idarəolunması ilə bağlı daha keyfiyyətlə qərarlar qəbul edə bilərlər. İnformasiya axını altında logistik əməliyyatların idarə edilməsi və ona nəzarət üçün logistik sistem tərəfindən istifadə olunan, logistik sistemlə xarici mühit arasında əlaqələri təşkil edən məlumatlar məcmusu başa düşülür. İnfrormasiya axını vaxt vahidi ərzində işlənilən, saxlanan və ötürülən inormasiyanın kəmiyyəti ilə ölçülür.

Tədarük zəncirinin idarə olunması üçün müxtəlif ifadələr var. Ən yaxşısı tədarük zəncirinin idarə edilməsi tədarükçülər və müştərilər arasında informasiya, maddi və pul axının idarə olunması üçün ümumi bir sistematik yanaşmadır.

Tədarük zənciri - axınların nəzarəti deməkdir. İstənilən tədarük zəncirində beş əsas axın var: məhsul axını, maliyyə axını, informasiya axını, dəyər axını və risk axını.

Məhsul axını özündə malların təchizatçıdan alıcıya, həmçinin hər hansı bir qaytarma və ya müştəri ehtiyaclarını birləşdirir. Maliyyə axını kredit şərtlərindən, ödəmə cədvəllərindən, mülkiyyət və yük müqavilələrindən ibarətdir. İnformasiya axını bir məhsul bültenini, sifariş transferini, cədvəlləri və çatdırılma statusu yeniləmələrini ehtiva edir.

**İnformasiya axını**

Təkliflər, satınalma sifarişləri, aylıq planlar, texniki dəyişikliklər üçün tələblər, keyfiyyət şikayətləri, təchizatçının istehsal hesabatları müştəridən təchizatçıya çatdırılır. Təchizatçı tərəfindən buraya, şirkətin təqdimatı, təkliflər, satınalma sifarişinin təsdiq edilməsi, alınan tədbirlər haqqında məlumat, göndərmənin detalları,invertar hesabatı, fakturalar və s. aiddir.

Tədarük zəncirinin uğurlu olması üçün təchizatçı və müştəri arasında daimi qarşılıqlı əlaqə olmalıdır. Bir çox hallarda informasiya şəbəkəsində distribütor, diller, pərakəndə satıcı, logistika

xidmət təminatçıları kimilər daxil olur. Bununla yanaşı informasiya şəbəkəsində müştərilərin və təchizatçıların müxtəlif bölmələri də buraya daxildir. Müştərinin öz istehsalına dair daxili məlumat axını ayrıdır. Tədarük zəncirində informasiya axını iki hissəyə yönəlmişdir. Sürətli və yüksək keyfiyyətli informasiya axını tədarük zəncirinin səmərəliliyini artırır, informasiya texnologiyaları isə istehsalı əhəmiyyətli dərəcədə dəyişdi.

### 4.2. LOGİSTİK SİSTEMLƏR İLƏ İŞLƏYİR

ANBAR İDARƏETMƏ SİSTEMİ – WMS (WAREHOSUE MANAGEMENT SYSTEM)

Bu sistem anbarın idarəolunmasında bütün proseslərin avtomatlaşdırılmasını və optimatlaşdırılmasını təmin edir. WMS-in baza funksiyalarına aşağıdakilar aiddir: məhsulun qəbulu, çeşidlənməsi, qalıqların monitorinqi, inventarın idarə edilməsi, malların paylanması və toplanması, qablaşdırma, yerləşdirilməsi, əmək resurslarının idarə edilməsi, yük qaldırma avadanlıqların avtomatlaşdırması və s.

Çox hallarda WMS sistemi anbarın aktiv idarəedilməsi, malların alınması sürətinin artırılması, malların dəqiq yerləşmə mövqəyi haqqında məlumatın alınması, saxlama müddəti məhdud məhsulların effektiv idarəolunması, anbarda biznes proseslərinin effektliyinin artırılması və anbardan istifadənin optimallaşdırılması və s. üçün istifadə olunur.

**İş prinsipi**

WMS sisteminin ayrılmaz hissəsi anbarda ünvanlanmanın tətbiqidir.Malın axtarışının asanlaşdırılmasını təmin etmək üçün anbar minimum bir neçə zonalara bölünür.Hər bir zonanın öz kodu olur,və bu zona "bölmə" adlanır.Bölmələr zonalara birləşərək ünvanlı depoları olan anbar kartı yaradılır. Bundan sonra anbar daxilində bütün əməliyyatlar hər hansı bir bölmənin göstərişi ilə həyata keçirilir. Sistemə anbarın hazırki ölçüsü və xüsusiyyətləri nəzərə alınaraq onun real və fiziki modeli daxil edilir. Bir qayda olaraq bu plan-sistem 2D və ya 3D rejimində baxılmasına imkan verir.

Bölmələr arasında məhsulların yerləşdirilməsi kağız üzərində də aparıla bilər: bu üsul ucuz başa gəldiyi kimi, həm də zəhmət tələb edir. Adətən bunun üçün məlumatlar simsiz şəbəkə ilə mərkəzi sistemə ötürən məlumatların toplanması terminallarından istifadə olunur. Barkodlaşdırmanı tətbiq etməklə bölmərəin markanalnması tez-tez optimallaşdırılır ki, bu da bölmələrin və məhsulların əllə markalanma zəruriyyətini aradan qaldırır.




Ştrix-kod hər yerdə istifadə olunur- malın üzərində, paletlərdə

Ştrix-kod hər yerdə istifadə olunur- malın üzərində, paletlərdə və bölmələrin etiketlərində. Terminallarda ştrix-kod bir dəfə düyməni basmaqla lazerin köməyi ilə oxunur. İşçi tez və dəqiq hansı malı haradan və haraya qoyulmasını təsdiq edir.

Ştrix-kod printerlərin, terminalların və simsiz avadanlıqların istifadəsi layihənin xərclərini artırsa da, əsas proseslərin sürətini əhəmiyyətli dərəcədə artırır.

Sistem anbara gələn malların yerləşməsinin bütün tələblərini nəzərə alır. Məsələn, rütubəti, istiliyi, son istifadə müddətini, uyğunluq qaydalarını və digər parametləri nəzərə alır. WMS avtomatik olaraq qəbul edilmiş mallar üçün saxlama yerlərini seçir və anbar işçilərin tapşırıqlarını formalaşdırır. Tapşırıqlar hər bir işçi üçün fərdi olaraq elementar mərhələli şəkildə terminalların ekranında əks olunur.

Sistem həmçinin avadanlıqların anbar kompleksinin ərazisində optimal hərəkətini təşkil edir ki, bu da yükdaşıma vasitələrin boş-boşuna hərəkətini azaldır. WMS-də malların yerləşməsi haqqında bütün məlumatlar, məhsulun mövcudluğu, işçilərin gördüyü işlər və əməliyyatlar dərhal yenilənir. Daha rahat formada anbarın izlənməsi üçün 2D qrafik ötürmə rejimindən istifadə etmək imkanı var. Sistem işin nəticələrinə və anbarın vəziyyətinə görə hesabatların hazırlanmasına imkan yaradır.

Çox vaxt barkod texnologiyası ilə birgə WMS sistemi real vaxt zamanında RFDI (ing.Radio Fruquency Identification-Radio Dalğaları İdentifikasiya) sistemin işini təşkil edən RFDI texnologiyasından da istifadə edir. Müasir alıcıların çoxunun tələblərinə uyğun olaraq səsli idarəsi, əlavə servislər, 3PL operatorların bilingi və anbarda əmək resursların baza idarəsi WMS sisteminin funksionallığına daxildir.

Anbarın avtomatlaşdırılması özündə anbarın idarəetmə sistemlərini, ştrix-kod texnologiyasını, radioterminalları, skanerləri, anbar və yükdaşıma avadanlıqlarını, istehsal prosedurlarının və heyəti vahid işçi kompleksi kimi birləşdirir ki, bu da bütün digər proseslərini vahid logistik silsilədə effektiv əlaqələndirir.




**WMS sisteminin əsas imkanları**

Müasir anbar idarəetmə sistemləri keyfiyyətli avtomatlaşdırmanı təmin etmək üçün anbar email proseslərinin bütün xüsusiyyetlərini nəzərə almalıdır.Bu səbəbdən həmin sistemlərin funksionallığı

xüsusiyyetlərini nəzərə almalıdır.Bu səbəbdən həmin sistemlərin funksionallığı daimi genişlənir.

Böyük WMS platformaların əsas funksional blokları özündə aşağıdakıları birləşdirir: qəbul, yenidən qablaşdırma, saxlama, seçilmə, yükləmə və inventarlaşdırma.

Hal hazırda sifarişçilərin yüksək tələblərinə cavab vermək üçün təchizatçılar öz platformalarıının funksionallığını əhəmiyyətli dərəcədə artırırlar. Məsələn, bunun üçün əmək resurslarının idarə edilməsi və nəqliyyat menecment sisteminin menecment sisteminin funksionallığını təklif edirlər.

Anbar idarəçiliyin əsas imkanlarını nəzərdən keçirək.

**Malların qəbulu**

WMS sistemi real zaman rejimində radioterminallardan, ştrix-kodlardan və kağız daşıyıcılarını istifadə etməklə malların qəbulunu təmin edir. Adətən alınma üçün sifariş və ya tədarükçülərdən boşaldılma haqqında bildiriş həmçinin də onsuz idensifikasiya nəzərdə tutulur.

**Anbarlaşdırma**

Anbar idarəetmə sistemlərindən istifadə personalın anbarın nəzarəti altında qablaşdırma və ya özündə avtomatik anbarlaşdırma başa düşülür.

**Qablaşdırma və qaytarılma tara ilə iş**

WMS sistemi öz daxilində digər qabalşdırmaya yol verən xüsusi saxlama yerləri olan qablaşdırmalarla ilə işi təmin edir.Malların qablaşdırılması bütov vahid şəkildə emal olunur. Qablaşdırma ünvanların formalaşdırma qaydalı istifadəçilər tərəfindən verilir, bu da anbar email prosesində ayrıca qablaşdırmanın hərəkətini izləməyə imkan verir. Sistem müxtəlif saxlama vahidlərində malların qalıqları haqqında hesabatları təqdim edir.

**Saxlama**

**Əmtəə nomenklaturanın idarəsi**

Sistem əmtəə nomenklaturası üçün ixtiyari ierarxiya ilə verilənlər bazasının yaradılmasını dəstəkləyir. Verilənlər bazasında istifadəçi hər bir məhsul növü üçün istənilən xarakteristikalarını yarada bilər.

**Saxlama yerlərinin idarəsi**

Malların emalı və saxlanması üçün hər hansı əməliyyatları həyata keçirərkən anbar idarəetmə sistemi əməliyyatın bir və ya digər mərhələsinin həyata keçirildiyi saxlama yerinin ünvanını göstərməyə imkan verir.

Saxlama yerin ünvanı müəssisənin anbarda saxlama yerlərinin xüsusiyyətlərini əks etdirir. Ünvanın strukturu və dərinliyi istifadəçi tərəfindən verilir və sistemin işlənməsi zamanı dəyişilə bilər. İstifadəçi həmçinin saxlama ünvanının unikallığı qaydalarını müəyyən edir.

### 4.3. ANBARIN İDARƏ EDİLMƏSİNDƏ EXCEL OFİS PROQRAMINDAN İSTİFADƏ EDİR

ANBAR İDARƏ EDİLMƏSİNDƏ MİCROSOFT OFFİCE EXCEL PROQRAMINDAN İSTİFADƏ

Anbarlaşdırma xammal, material və hazır məhsul ehtiyatlarının idarə edilməsi məqsədilə materialların saxlanması üçün açıq meydançaların qurulması, məhsul nomenklaturaları üzrə ehtiyatların ixtisaslaşdırılmış anbarlarda yerləşdirilməsi və saxlanması işinin planlaşdırılması və təşkili, yükləmə və boşaltma, nəqletmə və sortlaşdırma zonalarının layihələşdirilməsi, yükləmə-boşaltma və digər anbar avadanlıqlarının seçilməsi kimi məsələlərin həll edilməsini nəzərdə tutan logistik funksiyaları özündə birləşdirir.Anbar işinin avtomatlaşdırılması, anbar saxlama prosesinin effektliyini yüksək səviyyəyə qaldırır. Avtomatlaşdırmanın qazandırdığı üstünlüklər danılmazdır.

| Təsnifat əlaməti | Logistik əməliyyatların növü |
|---|---|
| **Təsnifat əlaməti** | * birtərəfli<br>* ikitərəfli |
| **Yük vahidinin xassələrinin dəyişilməsi** | * dəyər əlavə etməklə<br>* dəyər əlavə etməməklə |
| **Sistemə münasibətinə görə** | * xarici əməliyyatlar<br>* daxili əməliyyatlar |
| **Logistik əməliyyatların obyekti** | * material axınları<br>* informasiya axınları<br>* maliyyə axınları |

Hər şeydən öncə mal giriş və çıxışında, qeydiyyatında, inventarizasiyasında zaman sərfiyatı bir neçə dəfə azalır. Anbar işinin avtomatlaşdırılması adı altında ilk növbədə bir çox lazımi funksiyaları özündə cəmləyən müasir informasiya texnologiyalarının tətbiqi başa düşülür. Kiçik biznesin avtomatlaşdırılması məqsədilə sahbkarlar çox vaxt Microsoft Excel proqramında anbar uçotunu aparmağa başlayırlar.Bu metod ucuz başa gəlir və kiçik dövriyyə ilə fəaliyyətə uyğun gəlir. MS Excel-dən istifadə edərək anbarda sənədləşmənin aparılması üçün proqramın sadə biliklərin olması ilə kifayətlənmir.

**MS Excel-də anbar uçotunun imkanları**

Excel-də makroslardan istifadə edərək anbar uçotunun bütün əməliyyatlarını aparmaq olaraq. Ən çox anbar uçotunun aparılması üçün Excel-də aşağıdaki şablonlar istifadə olunur:

1. Malların mədaxili, məxarici və anbarlar arasında yerdəyişməsi




2. Bir və ya bir neçə filtrin köməyi ilə cari balansların baxılması
3. Anbar üzrə dövriyyə bəyannaməsinin formalaşması
4. Məhsulların daxilolmalarının və daşınmalarının arxivinə baxılması
5. Dövr üzrə maliyyə hesabatlarının aparılması və mənfəətin hesablanması
6. Malların hərəkəti, qalığı və satışı haqqında müxtəlif cədvəllər




7. Alıcıların və malgötürülənlərin borcları haqqında ümumi ve analitik hesabatlar




| | | Jurnal valyutasında borclar | | | Valyutada borclar | |
|---|---|---|---|---|---|---|
| Adı | Jurnalın val | Debet dövriyyəsi | Kredit dövriyyəsi | Fərq | Debitor borcları | Kreditor borcları |
| | | | | | 939 014,23 | 180 648,78 |
| ALLAHVERDİ | AZN | 172,4 | 172,4 | | | |
| ALİM | AZN | 422 | 334 | 88 | 88 | |
| ANAR | AZN | 549 | 282 | 267 | 267 | |
| ARZU | AZN | 213 240,88 | 142 913,37 | 70 327,51 | 70 327,51 | |
| ARİF | AZN | 5 312,8 | 5 312,8 | | | |
| AŞUR | AZN | 4 671,9 | 4 037,75 | 634,14 | 634,14 | |
| BABƏK | AZN | 15 849,3 | 14 144,4 | 1 704,9 | 1 704,9 | |
| BƏHRUZ | AZN | 322 | 322 | | | |
| BİNNET | AZN | 10 | | 10 | 10 | |
| ALIS | AZN | 546 | 1 674,84 | -1 128,84 | | 1 128,84 |
| CABİR | AZN | 1 730 | 8 700 | -6 970 | | 6 970 |
| CAHANGİR | AZN | 2 537 | 2 497 | 40 | 40 | |
| CEYHUN | AZN | 32 538,9 | 28 832,2 | 3 706,7 | 3 706,7 | |
| CƏMİL | AZN | 14 125,5 | 12 046,5 | 2 079 | 2 079 | |
| DUZ | AZN | | 15 795,4 | -15 795,4 | | 15 795,4 |
| FAZİL | AZN | 23,2 | 23,2 | | | |
| ELDAR | AZN | 566 | 566 | | | |
| ESMİRA | AZN | 28 004,6 | 4 604,6 | 23 400 | 23 400 | |
| SAMİR | AZN | 6 894,6 | 5 484,6 | 1 410 | 1 410 | |
| FAZİL | AZN | 19,2 | 19,2 | | | |
| FEYRUZ | AZN | 7 913,5 | 7 913,5 | | | |
| FUAD | AZN | 4 304,85 | 4 293,45 | 11,4 | 11,4 | |
| FƏXRİ | AZN | 16 984,39 | 15 894,39 | 1 090 | 1 090 | |
| FİRENGİZ | AZN | 40 | | 40 | 40 | |

8. Hər bir müştəri üzrə borcların açıqlanması (qaimələr və mallar səviyyəsində)

| Sənəd tipi | Sənəd № | Tarix | Qeyd | Məbləğ | Valyuta | Kurs | Debet | Kredit | Borc qalığı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 1 744,93 | 1 664,21 | 80,72 |
| Mal/məx. | | 13.04.2017 | | 127,8 | AZN | 1 | 127,8 | | 127,8 |
| Pul/məd. | | 15.04.2017 | Borclar ( ) | 350 | AZN | 1 | | 350 | -222,2 |
| Mal/məx. | | 22.04.2017 | | 128 | AZN | 1 | 128 | | -94,2 |
| Mal/məx. | | 03.05.2017 | | 144 | AZN | 1 | 144 | | 49,8 |
| Mal/məx. | | 13.05.2017 | | 144 | AZN | 1 | 144 | | 193,8 |
| Pul/məd. | | 22.05.2017 | Borclar ( ) | 350 | AZN | 1 | | 350 | -156,2 |
| Mal/məx. | | 27.05.2017 | | 144 | AZN | 1 | 144 | | -12,2 |
| Mal/məx. | | 14.06.2017 | | 167,91 | AZN | 1 | 167,91 | | 155,71 |
| Pul/məd. | | 26.06.2017 | Borclar ( ) | 350 | AZN | 1 | | 350 | -194,29 |
| Mal/məx. | | 03.07.2017 | | 167,91 | AZN | 1 | 167,91 | | -26,38 |
| Mal/məx. | | 13.07.2017 | | 154,17 | AZN | 1 | 154,17 | | 127,79 |
| Mal/məx. | | 22.07.2017 | | 79,94 | AZN | 1 | 79,94 | | 207,73 |
| Mal/məx. | | 02.08.2017 | | 63,2 | AZN | 1 | 63,2 | | 270,93 |
| Pul/məd. | | 08.08.2017 | Borclar ( ) | 350 | AZN | 1 | | 350 | -79,07 |
| Mal/məx. | | 15.08.2017 | | 150 | AZN | 1 | 150 | | 70,93 |
| Alıcıdan qaytarma | | 15.08.2017 | | 14,21 | AZN | 1 | | 14,21 | 56,72 |
| Mal/məx. | | 04.09.2017 | | 124 | AZN | 1 | 124 | | 180,72 |
| Pul/məd. | | 14.09.2017 | Borclar ( ) | 250 | AZN | 1 | | 250 | -69,28 |
| Mal/məx. | | 18.09.2017 | | 150 | AZN | 1 | 150 | | 80,72 |

9. Müəssisənin xərcləri haqqında geniş hesabatlar

Tarix: 01.05.2017 – 31.05.2017 | Valyuta: AZN | Əməliyyatın məzmunu: Xərclər

| Məzmun | Məbləğ |
|---|---|
| | **27 686,14** |
| Amortizasiya | 140 |
| Avadanlıq təmiri | 140 |
| Aylıq xidmət haqqı | 2 500 |
| Bank xidməti | 169,03 |
| Cərimələr | 300 |
| DSMF-yə ödəniş | 1 625 |
| Etibarnamə xərci | 40 |
| Ezamiyyə xərci | 385 |
| Gömrük xərcləri | 2 433 |
| Həyat sığortası | 275,16 |
| Kommunal xərclər | 277 |
| Kredit %-i | 1 161,89 |
| Kurc fərqi | 200 |
| Malın daşınması xərcləri | 2 315 |
| Maşınların təmir xərcləri | 1 615 |
| Moyka (şirkət maşınlarının yuyulması) | 123 |
| Nəqliyyat cərimələri | 50 |
| Nəqliyyat departamenti (yük birkası) | 510 |
| Ofis xərcləri | 165 |
| Qonaq xərcləri | 850 |
| Sair xərclər | 821,75 |
| Sertifikat | 850 |
| Telefon xərci | 45,6 |
| Uniforma | 250 |
| Yanacaq xərci | 2 924,78 |
| Əmək haqqı (ekspeditorlar) | 1 574,91 |
| Əmək haqqı (işçilər) | 4 445,02 |
| İcarə haqqı | 1 500 |

10. Müəssisənin mənfəəti və yekun balansı

### 4.4. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Tədarük zəncirində İnformasiya axınının əhəmiyyətini izah edin.
- Logistikada anbar idarəetmə sistemi analyışını izah edin.
- Anbar idarəetmə sisteminin əhəmiyyətini göstərin.
- WMS sistemlərinin xüsusiyyetləini sadalayın və iş prinsipini izah edin.
- Anbar idarəetmə sisteminin funskiyalarını sadalayın.
- WMS sisteminin əsas imkanlarının sadalayın.
- Microsoft Office Excel proqramında anbar əməliyyatları sadalayın.
- Microsoft Office Excel proqramında anbarda ən çox istifadə olunan şablonları sadalayın.

- Malların mədaxili,məxarici və anbarlar arasında yerdəyişmə cədvəlini Microsoft Office Excel proqramında yığın.
- Malların hərəkəti, qalığı və satışı haqqında cədvəlləri Microsoft Office Excel proqramında yığın.

### 4.5. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"4.1. Logistikada və tədarük zəncirinin idarə edilməsində informasiya axının əhəmiyyətini vurğulayır."**

1. Logistika və tədarük zəncirində hansı axınlar mövcuddur?
2. Logistika və tədarük zəncirində informasiya axını anlayışı nədən ibarətdir?
3. İnformasiya axınının əhəmiyyəti nədir?

**"4.2. Logistik sistemlər ilə işləyir."**

1. Anbar idarəetmə sistemi nədir? Anbar idarəetmə sisteminə hansı əsas funksiyalar daxildir?
2. WMS sisteminin iş prinsipi necə qurulur?
3. Ştrix-kod texnologiyasın iş prinsipini izah edin. Ştrix-kod texnologiyası harada istifadə olunur?
4. WMS sisteminin əsas imkanları hansılardır?
5. Anbar idarəçiliyində malların qəbulu hansı vasitəlirin köməyi ilə heyata keçirilir?

**"4.3. Anbarın idarə edilməsində Excel ofis proqramından istifadə edir."**

1. Anbar sistemi özündə hansı funksiyaları birləşdirir?
2. Logistik əməliyyatları hansı əlamətlərə görə təsnif etmək olar?
3. Anbarın avtomatlaşdırılmasının hansı üstünlükləri var?
4. Kiçik biznesdə anbrın avtomatlaşdırılması məqsədilə hansı proqram təminatından istifadə etmək olar?
5. Microsoft Office Excel proqramında hansı anbar əməliyyatlarını yerinə yetirmək olar?

1. http://www.iqualifyuk.com/library/business-management-section/the-eight-components-of-supply-chain-management/

2. https://www.supplychaindive.com/news/supply-and-demand-still-rule-supply-chains/516042/

3. https://az.wikipedia.org/wiki/T%C9%99chizat_Z%C9%99nciri

4. http://www.aztechizat.com/blog/t%C9%99dar%C3%BCk-z%C9%99nciri.html

5. http://markono.booklikes.com/post/1783067/we-help-take-your-publishing-to-the-next-level)

6. Phuc T. T. Nguyen*, Lin Crase, Geoffrey R. Durden (2008); Organizational Logistics Processes: A Literature Review and an Exploratory Investigation of International Multimodal Transport in Vietnam

7. Hannan Sadjady (2011); 2 - Physical Flows; https://doi.org/10.1016/B978-0-12-385202-1.00002-5

8. http://www.differencebetween.net/business/differences-between-logistics-and-supply-chain/

9. https://www.marketing91.com/logistics-activities/

10. https://technofaq.org/posts/2016/08/role-and-function-of-logistics-management/